18 oktyabr – Müstəqillik Günüdür!

GÜNDOĞAR

17 oktyabr 2014-cü il № 32-33-34 (6542) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

ƏN BÖYÜK MİLLİ SƏRVƏTİMİZ

XX əsrin əvvəllərində Rusiyada baş verən burjua və sosialist inqilablarından sonra yaranmış tarixi şəraitdən yararlanan xalqımız 1918-ci ildə Şərqdə ilk demokratik respublika — Azərbaycan Demokratik Cümhuriyyətini yaratmağa müvəffəq olmuşdur. Xalqımızın müdrik, təmənnasız ziyalıları ilk müstəqil Azərbaycan dövlətini qurmuş, onu dünyaya təqdim etmiş və imkanları daxilində tanıtdırmağa müvəffəq olmuşlar. Amma təəssüf ki, cəmi iyirmi üç ay yaşayan bu gənc respublika yalnız adını və formasını dəyişmiş rus imperiyasının işğalı nəticəsində süquta uğramışdır. Onu quran, yaradan fədakar insanlar isə amansız təqiblərə və repressiyalara məruz qalmış, düz yetmiş il nəsillərə mürtəce ünsürlər kimi təqdim edilmişlər.

Azadlıq və müstəqillik arzularını üçrəngli bayrağına büküb qəlbində yaşadan Azərbaycan xalqı əsrin sonunda da yaranmış tarixi şəraitdən müdrikliklə istifadə etdi: 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Ali Soveti özünün tarixi iclasında taleyüklü ali bir qərarı — Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Həmin sənədi o gün iqtidarlı-müxalifətli bütün deputatlar ayaq üstündə yarım saat alqışladılar və bütün Azərbaycan xalqı, dünya azərbaycanlıları bu alqışlara qoşuldu.

Lakin çox təəssüf ki, həmin tarixi hadisəni yaşayan xalqımızın onda bir gözü gülür, bir gözü isə ağlayırdı. Çünki ömrünü başa vurmuş qırmızı imperiya bizim üçün özündən sonra çox böyük fəlakətlər və problemlər miras qoyub getmişdi. Rusiyanın qoltuğuna sığınmış və bu günə qədər orada qalan mənfur qonşumuz Ermənistan dövləti Dağlıq Qarabağı və digər ərazilərimizi ələ keçirmək üçün gecə-gündüz mübarizə aparır, öz təbliğat maşınlarını dünya çapında əleyhimizə işlədirdi. Ən dəhşətlisi o idi ki, belə bir məkrli düşmənlə üz-üzə dayansaq da, iqtidar və müxalifət düşərgələrinə bölünmüş başbilənlərimiz hakimiyyət və vəzifə kürsüləri uğrunda savaşa çıxmış, Vətən məfhumunu az qala unutmuşdular. Tezliklə bu daxili çəkişmələr özünün acı nəticələrini göstərdi: qanlı Xocalı faciəsi baş verdi, rayonlarımız bir-birinin ardınca rus-erməni hərbi birləşmələri tərəfindən işğal olundu. Nəhayət, ölkədə yaranan hərc-mərclik, xaos özünün pik zirvəsinə çatdı, Gəncə hadisələri nəticəsində ölkədə vətəndaş qarşıdurması yarandı. Ən faciəvisi o idi ki, müstəqilliyimiz və dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Bu isə açıq-aşkar məhvə, ölkənin dünyanın siyasi xəritəsindən silinməsinə aparırdı. Hakimiyyətdə olanlar başlarını itirmiş, əhali çaşqınlıq və qeyri-müəyyənlik tilsiminə düşmüşdü. Belə ağır, tələtümlü vaxtda xalqın ancaq bir ümid yeri vardı. Bütün nəzərlər Naxçıvan Ali Məclisinə dikilmişdi. Bütün xalq, bütün Azərbaycan başabəla siyasətbazlardan, özünü "ata" iqtidar, "ana" müxalifət adlandıranlardan üz çevirərək öz böyük xilaskarını — Heydər Əlirza oğlu Əliyevi Bakıya dəvət etdi. Xalqın böyük oğlu onu köməyə, imdada çağıran öz xalqının, millətinin səsinə səs verdi, sönmüş ümidləri yenidən qanadlandırdı, bütün xalqı öz ətrafına topladı və hamıya qəti şəkildə bəyan etdi: "Azərbaycanın dövlət müstəqilliyi bizim ən böyük milli sərvətimizdir!" Azərbaycan xalqı öz böyük oğlunu və xilaskarını bağrına basdı, taleyini ona tapşırdı və onu yenidən özünə rəhbər etdi. Eyni zamanda ona dünyada hələ heç bir siyasətçiyə qismət olmayan bir ad verdi: "Ümummilli Lider". Dahi rəhbərimiz, Ümummilli Liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində artıq 23 ay yox, 23 ildir ki, hər il oktyabrın 18-ni Dövlət Müstəqilliyi bayramı kimi qeyd edirik. Və yəqin uzun illər, zamanzaman da qeyd edəcəyik. Ona görə ki, Azərbaycan sabaha Ulu Öndərin müəyyənləşdirdiyi işıqlı yolla gedir. Möhtərəm Prezidentimiz İlham Əliyev bu yola sadiqdir, onu inamla, ilhamla irəli apara bilir.

Rayon ictimaiyyətinə təbrik

Hörmətli neftçalalılar!

Oktyabrın 18-də dövlət müstəqilliyimizin yenidən bərpasının 23-cü ildönümü tamam olur. Sizi bu əlamətdar gün münasibətilə ürəkdən təbrik edirəm.

Xalqımız öz dövlət müstəqilliyinə ilk dəfə ötən əsrin əvvəllərində — 1918-ci il may ayının 28-də nail olmuşdu. Bu təkcə respublikamızda deyil, bütün Şərqdə qurulan ilk demokratik respublika idi. Onun ömrü uzun olmasa da iki illik fəaliyyəti dövründə bu dövlət çox şeyə nail oldu. Özünün atributlarını yaratdı, sərhədlərini müəyyənləşdirdi və digər mühüm uğurlara imza atdı. Ən başlıcası xalqın, millətin qəlbindəki azadlıq arzularını alovlandırdı, ona müstəqilliyin necə şirin nemət olduğunu anlatdı.

70 illik sovet təbliğatına baxmayaraq xalqın qəlbindəki azadlıq arzularının sönməməsi də bununla bağlı idi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqındakı Konstitusiya Aktı da xalqın, millətin böyük sevgisindən doğmuşdu. Amma AXC-Müsavat hakimiyyəti dövründə ölkədə vəziyyət elə bir həddə gəlib çatdı ki, xalq uzun illərdən bəri gözlədiyi bu böyük sevinci yaşaya bilmədi. Ölkə yenidən müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı.

Tarix yenidən təkrarlansa da, dövr o dövr deyildi. İndi xalqın inandığı, arxalandığı böyük güvənc yeri vardı. Ən çətin, ağrılı məqamda da xalq məhz bu güvənc yerinə üz tutdu. Öz qüdrətli oğlunu, dünya şöhrətli siyasətçi Heydər Əlirza oğlu Əliyevi Bakıya dəvət etdi. Yüz minlərlə insanlar bu dahi insanı böyük sevinc hissilə, əsl xilaskar kimi qarşıladılar.

Möhtərəm Heydər Əliyevin qayıdışı ilə ölkədə hər şey kökündən dəyişdi. Müstəqilliyimiz qorunub saxlanıldı, Azərbaycan özünün tərəqqi, inkişaf yoluna qədəm qoydu. Cəbhədə atəşkəsə nail olunması respublikada genişmiqyaslı quruculuq işlərinə başlanmasına imkan verdi. Çox keçmədi, dünyanın aparıcı şirkətlərilə neft müqavilələri bağlandı, milli Konstitusiyamız qəbul olundu, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz ixrac boru kəmərlərinin çəkilməsinə başlandı, Böyük İpək Yolunun bərpası üçün tədbirlər görüldü. Həmin dövrdə hüquqi dövlət quruculuğuna xidmət edən yeni qanunların qəbulu, buna müvafiq olaraq lazımi təsisatların yaradılması, Azərbaycanın BMT və Avropa Şurası kimi mühüm beynəlxalq təşkilatlara üzv qəbul edilməsi və görülən digər tədbirlər ölkəmizin demokratik inkişafında, onun beynəlxalq aləmə inteqrasiyasında əhəmiyyətli dərəcədə müsbət rol oynadı.

Başlanan bu işıqlı, nurlu yolun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi ölkəmizə yeni-yeni uğurlar, dvidendlər gətirir. Vaxtı ilə çoxlarına xəyal, əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz ixrac boru kəmərlərinin işə salınması artıq reallıqdır. Dünyanın ən böyük yanacaq ehtiyatlarının toplandığı "Şahdəniz" qaz yatağının işə salınması, "Ümid", "Abşeron" qaz yataqlarının aşkarlanması son illərin böyük uğurlarıdır. TANAP, TAP layihələri, Azərbaycanla Türkiyənin birgə təşəbbüsü nəticəsində Trans-Anadolu layihəsi, "Cənub" qaz dəhlizinin reallaşdırılması Avropanın yanacaq təhlükəsizliyinə mühüm töhfələrini verməklə yanaşı, ölkəmizin iqtisadi gücünün daha da artmasına şərait yaradacaqdır.

Yaxın vaxtlarda biz daha bir möhtəşəm layihənin — uzaq Çinlə Avropanı birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının da şahidi olacağıq. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun durmadan artması, Avropanın yanacaq təhlükəsizliyində mühüm amilə çevrilməsi və qazanılan digər böyük nailiyyətlər dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin bəhrəsidir. Şübhəsiz, bu siyasət, ordumuzun durmadan gücləndirilməsi torpaqlarımızın azad olunmasına, qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmalarına da təsirsiz ötüşməyəcəkdir.

Bu gözəl bayram günündə biz Vətənimizin azadlığı və bütövlüyü uğrunda canlarını qurban vermiş neftçalalı həmyerlilərimizi unuda bilmərik. Onları böyük hörmətlə, ehtiramla yad edir, şəhidlərimizə qəni-qəni rəhmət diləyirik.

Hörmətli neftçalalılar!

Sizi bir daha bu əziz gün münasibətilə təbrik edirəm. Hər birinizə xoş günlər, əmin-amanlıq və bayram sevincləri arzulayıram.

İsmayıl VƏLİYEV,
Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı

IV Bakı Beynəlxalq Humanitar Forumu mədəniyyətlərarası dialoqa öz böyük töhfələrini verdi

Çox qısa zaman kəsiyində sürətli inkişaf yolu keçərək böyük uğurlara imza atan ölkəmiz, həm də mühüm beynəlxalq tədbirlərin təşkil edildiyi, keçirildiyi bir məkana çevrilmişdir. Bu mühüm tədbirlərin iştirakçıları olan xarici dövlətlərin vətəndaşları, görkəmli alimlər, ictimai-siyasi xadimlər respublikamızdakı inkişafı, son illərin nailiyyətlərini öz gözləri ilə görür, Azərbaycanı ayrı-ayrı millətlərin, etnik qrupların rahat, bərabər yaşadıqları tolerant, sülh ölkəsi kimi tanıyır və yüksək dəyərləndirirlər.

Bir neçə gün bundan qabaq Bakıda keçirilən IV Beynəlxalq Humanitar Forumu da bu cəhətdən müstəsna rol oynadı. 60-dan çox ölkədən 500-ə yaxın nümayəndənin iştirak etdiyi Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformaya çevrildi.

Bu platformadan, bu yüksək tribunadan ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyevin dərin məzmunlu nitqi səsləndi dünyaya. Ölkəmizdəki genişmiqyaslı inkişafı, əldə olunan böyük nailiyyətləri Forum iştirakçılarının diqqətinə çatdıran dövlətimizin başçısı eyni zamanda müsəlman aləmində gedən xoşagəlməz proseslərdən, Avropa qitəsində miqrantlara qarşı münasibətin pisləşməsindən, "multikulturalizm iflasa uğrayıb" kimi bəyanatların verilməsindən, ayrı-seçkiliyə meylli olan siyasi qüvvələrin daha böyük səs toplamalarından və digər bu kimi məsələlərdən də ciddi narahat olduğunu diqqətə çatdırdı.

Gələn il birinci Avropa Olimpiya Oyunlarının, 2017-ci ildə İslam Həmrəylik Oyunlarının, 2020-ci ildə isə futbol üzrə Avropa çempionatının Bakıda keçiriləcəyini böyük qürur həissi ilə diqqətə çatdıran Prezident İlham Əliyev bunları Azərbaycanın inkişafının və dünyada tanınmasının reallıqları kimi dəyərləndirdi, nitqinin sonunda Forum iştirakçılarına səmərəli fəaliyyət arzuladı.

Sonra tədbir iştirakçıları Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonun, BMT-nin İnkişaf Proqramının rəhbəri xanım Helen Klarkın, UNESKO-nun baş direktoru xanım İrina Bokovanın, İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycrinin çıxışlarını dinlədilər. Forumun plenar iclaslarında çıxış edən Estoniyanın sabiq Prezidenti Arnold Rüütel, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə, fiziologiya və tibb üzrə Nobel mükafatı laureatı Ervin Neher, kimya üzrə Nobel mükafatı laureatı Rudolf Artur Markus, fizika üzrə Nobel mükafatı laureatı Robert Petta Laflin, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Piter Artur Daymond və neçə-neçə görkəmli alimlər, filosoflar, ictimai-siyasi xadimlər, Nobel mükafatı laureatları dünyanı narahat edən məsələlərlə bağlı fikirlər səsləndirdilər.

Forumun "Multikulturalizmin müqayisəli tədqiqləri: nəzəriyyədən humanist təcrübəyə doğru" mövzusunda "dəyirmi masa" da maraqlı müzakirələrlə yadda qaldı, "Rəqəmsal dövrdə medianın transinformasiyası: inkişafın yeni meylləri" adlı "dəyirmi masa"da isə informasiya cəmiyyətinin bir sıra aktual problemləri müzakirə olundu.

Sonda geniş Bəyannamənin qəbulu ilə başa çatan Forum mədəniyyətlərarası dialoqa böyük töhfələr verdi. Bunu Forum iştirakçılarının səsləndirdikləri fikirlər bir daha sübut etdi. Bununla yanaşı respublikamızla yaxından tanış olan xarici qonaqlar buradakı yeniliklərin, qurulanların, yaradılanların, dinindən, irqindən asılı olmayaraq bütün millətlərin, etnik qrupların necə azad, firavan yaşadıqlarının bir daha canlı şahidləri oldular. Prezident İlham Əliyevin təbirincə desək, budur bugünkü Azərbaycan. Bu gün inkişafda olan ölkəmiz göstərir ki, düşünülmüş siyasət, cəmiyyətdə müsbət meyllər güclü olanda böyük uğurlara imza atmaq mümkündür.

ÍLHAMIM MƏNİM

Dünyada tanındı sənin varlığın,
Görülən işlərin, üzü ağlığın,
Elinə söykəndin, budur sağlığın, —
Hər şeydən əzizdir dedin Vətənim,
Hörmətli, izzətli İlhamım mənim!

Tərbiyə almısan Heydər babadan,
Siyasi biliyi böyük cahandan.
O böyük dəryadan, böyük ümmandan
Odlar yurdu olub sənin Vətənin, —
Əlçatmaz zirvəsən, İlhamım mənim!

Elin dar günündə gəldiz haraya,
Baxmadız dumana, tutqun səmaya,
Eşidib millətim qalxdı ayağa,
Dedi: — Heydər baba, canım-ciyərim,
Bircə sənə qalıb gümanım mənim.

Tanıyan yox idi Azərbaycanı,
Hər yerdə hörməti, var adı-sanı.
Qarış-qarış gəzdin bütün dünyanı,
Xilaskar dedilər adına sənin, —
Ondan bəhrələnən İlhamım mənim.

Bu elin arxası, köməyisən sən,
Düşünən beynisən, ürəyisən sən,
Vətənçün çox işlər görəsisən sən, —
Gələcək xoş günüm, baharım mənim,
Dünyada tanınan İlhamım mənim!

Qalmasın yad əldə bir qarış yerin,
Vəsiyyətidir bizə babam Heydərin,
Açılsın sabahım, gülsün səhərim,
Alınsın Qarabağ, qızıl gülşənim, —
Arzumuz çin olsun, İlhamım mənim!

Torpağa tökülüb şəhid qanları,
Qələbə müjdəsi gəzsin diyarı,
Tarix yaşadacaq bizə onları,
Abbasam, ürəyim doludur mənim, —
Sabaha ümidim, İlhamım mənim.

Abbasağa RƏHMANOV,
təqaüdçü

"Cənub" qaz dəhlizi — uğurlu siyasətin məntiqi nəticəsi

Sentyabrın 20-də — "Əsrin müqaviləsi"nin 20-ci ildönümü günündə xalqımız ölkəmizin iqtisadi qüdrətinin daha da artmasında çox mühüm rol oynayacaq yeni bir müqavilənin imzalanmasının böyük sevincini yaşadı. "Əsrin müqaviləsi"nin davamı kimi dəyərləndirilən "Cənub" qaz layihəsi doğrudan da olduqca möhtəşəm bir layihədir. Təsadüfi deyil ki, bu layihəni "Köhnə qitə"də "XXI əsrin layihəsi" adlandırmışlar.

Neft və qaz Azərbaycanın ta qədimdən ən qiymətli sərvəti olub, uzaq yadellilərin diqqətini özünə cəlb edib. Məşhur rus geoloqu Qubkin vaxtilə bu yerlərə gəlmiş, deyilənlərə görə bizim Neftçala torpağında da axtarışlar aparmışdır. Hitler isə, məşhur bir filmdə göstərildiyi kimi, onun üçün hazırlanmış böyük bir tortun məhz Azərbaycan, Bakı hissəsini kəsib götürmüşdü. Bu epizod həm də ikinci dünya müharibəsinin əsas hədəflərindən birinin məhz Bakı neftinin ələ keçirilməsi olduğunu göstərir. Bu müharibədə Bakı nefti doğrudan da həlledici rol oynadı, qələbəni məhz Bakı nefti qazandı, uddu. Amma buna görə Azərbaycana, Bakıya lazımi diqqət göstərilmədi. Ona görə ki, o vaxt Azərbaycan özünün qiymətli sərvətinin sahibi deyildi. Biz öz qiymətli sərvətimizə yalnız Ulu Öndər Heydər Əliyevin işləyib hazırladığı, cəsarətlə həyata keçirdiyi möhtəşəm neft strategiyasının sayəsində sahib çıxa bildik.

Çoxları hələ də Ulu Öndərin uzaqgörənliklə işləyib hazırladığı və cəsarətlə həyata keçirdiyi neft strategiyasının mahiyyətini, əhəmiyyətini lazımınca başa düşə, dərk edə, qiymətləndirə bilmir. Müstə-

qillik əldə etdikdən sonra Azərbaycanın müqəddəratı məhz bu məsələnin düzgün həllindən asılı idi. Azərbaycan özünün qiymətli sərvətinə təkbaşına yiyə dura, sahiblik edə bilməyəcəkdi. Bunun üçün dünyanın qüdrətli dövlətlərinin, aparıcı şirkətlərinin marağını tutmaq, bu dövlətləri və şirkətləri də bu işə qoşmaq, şərik etmək lazım gəlirdi. Bu ona görə vacib idi ki, ölkəmizdə dinclik, əmin-amanlıq yaransın, bəzi qüvvələrin əli, gözü, ümidi bizdən birdəfəlik üzülsün. Ümummilli Lider Heydər Əliyevin ardıcıl səyləri sayəsində 1994-cü ildə dünyanın aparıcı şirkətlərinin iştirakı ilə Bakıda, Gülüstan sarayında "Əsrin müqaviləsi"nin imzalanması ilə bu məsələ birdəfəlik həll olundu, qəti şəkildə özünün düzgün həllini tapdı, Azərbaycan inamla sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın neft strategiyasını necə uğurla işləyib hazırlamış, necə cəsarətlə həyata keçirməyə başlamışdısa ondan sonrakı dövrdə möhtərəm Prezidentimiz İlham Əliyev də bu strategiyanı eyni bir uğurla, eyni bir cəsarətlə davam və inkişaf etdirmişdir. Azərbaycanın neft strategiyasında yeni bir epoxanın başlanğıcı sayılan "Cənub" qaz dəhlizinin təməlinin qoyulması buna əyani sübutdur. Bu layihənin Avropa üçün necə böyük əhəmiyyət kəsb etdiyini, hansı mənanı daşıdığını tam aydınlığı ilə təsəvvür etmək üçün "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdə iştirak edən dövlət və hökumət rəsmilərinin sırasına ötəri nəzər salmaq bəsdir.

"Cənub" qaz dəhlizi ideyasının yaranması və bu möhtəşəm layihənin icrasına başlanması yalnız nəticədir. Amma əvvəldən bu möhtəşəm nəticəyə gətirib çıxaran ağır, çətin, dolaşıq bir yol da olub ki, möhtərəm Prezidentimiz İlham Əliyev bu yolun daim fəal yolçusu olub, çoxlu çətinlikləri dəf edib. Əgər əvvəldən bu möhtəşəm layihənin reallaşdırılması, gerçəkləşdirilməsi üçün lazımi addımlar atılmasaydı indi "Cənub" qaz dəhlizindən söhbət belə gedə bilməzdi. Bu cəhətdən 2012-ci və 2013-cü illərdə imzalanmış TANAP və TAP layihələri, buna müvafiq olaraq çəkiləcək Trans-Anadolu və Trans-Adriatik kəmərləri olduqca mühüm əhəmiyyət kəsb edir.

"Cənub" qaz dəhlizinin ölkəmiz üçün ən böyük əhəmiyyəti ondan ibarətdir ki, əgər indiyə qədər bizim qaz və neft layihələrimizdə özümüzdən başqa yalnız Gürcüstan və Türkiyə ölkələri iştirak edirdilərsə bundan belə Azərbaycan çox geniş beynəlxalq əməkdaşlıq yoluna qədəm qoyur. Azərbaycan qaz istehsalçısı kimi öz resurslarını dünya bazarına çıxardıqdan sonra Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, gələcək mərhələdə Monteneqro, Xorvatiya və digər ölkələr də bu layihəyə qoşula biləcəklər. Bu isə Azərbaycanın beynəlxalq aləmdəki rolunu, nüfuzunu daha da artıracaqdır.

Nurəddin BƏDƏLOV,
veteran neftçi

Neftçala Rayon İcra Hakimiyyətində

DOQQUZ AYIN NƏTİCƏLƏRİ RAYONUMUZ ÜÇÜN DƏ UĞURLUDUR

Ölkə Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə oktyabrın 8-də Nazirlər Kabinetinin 2014-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasına müvafiq olaraq Neftçala Rayon İcra Hakimiyyətində rayonun idarə, müəssisə və təşkilat rəhbərlərinin, şəhər, qəsəbə və kənd inzibati ərazi nümayəndələrinin, bələdiyyə və səhmdar cəmiyyətləri sədrlərinin, müştərək müəssisə və qeyri-hökümət təşkilatları rəhbərlərinin, iş adamlarının, sahibkarların iştirakı ilə geniş yığıncaq keçirilmişdir.

Hesabat yığıncağında Azərbaycan Respublikası Milli Məclisi regional məsələlər komitəsinin sədri, rayonumuzun deputatı hörmətli Arif Rəhimzadə iştirak etmişdir.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev rayonda 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə məruzə etmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasi irsinə əsaslanmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla həyata keçirilən sosial-iqtisadi inkişaf kursu ölkə iqtisadiyyatının davamlı inkişafını təmin edərək müsbət sosial-iqtisadi nəticələrin əldə olunmasına şərait yaratmışdır.

Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı nitqində deşmişdir: "Üçüncü rübdə ölkəmizin inamlı inkişafı istiqamətində önəmli addımlar atılmışdır. Ümumiyyətlə, ilin əvvəlindən bu günə qədər Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. Yadımdadır, ilin əvvəlində keçən ilin yekunlarını müzakirə edərkən qeyd etmişdim ki, 2014-cü il də Azərbaycan üçün uğurlu il olacaqdır. Artıq doqquz ayın nəticələri onu göstərir ki, həqiqətən bu il də tarixdə uğurlu il kimi qalacaq. Bu da təbiidir, çünki son illər ərzində aparılan islahatlar, irəli sürülmüş təşəbbüslər ölkəmizin dinamik inkişafını təmin etmişdir.

Doqquz ayın iqtisadi göstəriciləri də çox müsbətdir. İqtisadiyyatımız inkişaf edir, artır. Xüsusilə qeyd etməliyəm ki, Avropada iqtisadi maliyyə böhranı davam edir, ancaq Azərbaycanda hər il iqtisadi inkişaf müşahidə olunur və bu ilin doqquz ayında ümumi daxili məhsul 2,5 faiz artmışdır. Dünyada mövcud olan vəziyyəti nəzərə alsaq, deyə bilərik ki, bu, çox müsbət göstəricidir. Ən önəmlisi ondan ibarətdir ki, bunu biz hər dəfə məmnuniyyətlə qeyd edirik, qeyri-neft sektorumuz 6 faiz artmışdır. Qeyri-neft sektorunun artması, əlbəttə ki, bizim siyasətimizin nəticəsidir. Çünki bizim üçün əsas məsələ qeyri-neft sektorunun inkişafıdır.

Qeyri-neft sənayesi 6 faiz səviyyəsində artmışdır. Bu da çox müsbət göstəricidir. İnflyasiya çox aşağı səviyyədədir - cəmi 1,5 faiz. Əhalinin pul gəlirləri isə 5,4 faiz artmışdır. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir və beləliklə, bu, bilavasitə insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir.

Bizim kifayət qədər valyuta ehtiyatlarımız var. İlin əvvəlindən maliyyə resurslarımız 3 milyard 600 milyon dollar artıb. Bütövlükdə bizim 53 milyard dollardan çox valyuta ehtiyatlarımız var ki, bu da dünya miqyasında çox böyük göstəricidir. Adambaşına düşən valyuta ehtiyatlarımız isə, hesab edirəm ki, dünya miqyasında ən yüksək səviyyədədir.

Deyə bilərəm ki, Azərbaycanda aprılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən də yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Biz bir pillə də irəliyə getdik və dünya miqyasında bu göstəriciyə görə 38-ci yerdə olmaq tarixi nailiyyətdir. Yəni, bir sözlə, biz dünyanın ən rəqabət qabiliyyətli 40 ölkəsinin sırasındayıq. Bu, tarixi nailiyyətdir və bu bizə əlavə imkan verir. Biz onsuz da bilirik ki, düz yoldayıq. Azərbaycan inamla inkişaf edir. Ancaq, mötəbər böyük nüfuzu olan maliyyə-iqtisadi qurumlarının qiymətləndirməsi, əlbəttə ki, çox önəmlidir."

Sözünə davam edən məruzəçi 2014-cü ilin doqquz ayında rayonumuzun sosial-iqtisadi inkişafı istiqamətində görülmüş işlərə də geniş aydınlıq gətirmişdir. Qeyd etmişdir ki, hesabat dövründə rayonda ümumi məhsul istehsalının həcmi 2013-cü ilin müvafiq dövrünə nisbətən 3,6% artmışdır. Hesabat dövründə ümumi məhsul istehsalı 152,4 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,3 milyon manat çoxdur. 2014-cü ilin doqquz ayında ümumi məhsulun tərkibində sənaye məhsulu 19 milyon 508,0 min manat və ya ümumi məhsulun 12,8%-i qədər, kənd təsərrüfatı məhsulu 63 milyon 641,0 min manat və ya 41,8%, nəqliyyat xidməti 1 milyin 400,0 min manat və ya 0,9%, rabitə xidməti 500,0 min manat və ya 0,3%, ticarət, iaşə və digər xidmət sahələrinin həcmi 51 milyon 400,0 min manat və ya 33,7%, tikinti işlərinin həcmi 16 milyon manat və ya 10,5% olmuşdur. Ümumi məhsulun həcmində qeyri-dövlət bölməsinin payı 89,3%-ə çatmışdır. Adambaşına 1823,0 manatlıq və ya 2013-cü ilin müvafiq dövrünə nisbətən 2,4% çox məhsul istehsal edilmişdir.

2014-cü ilin doqquz ayında rayonda 5 yeni müəssisə yaradılmış, 431 fiziki şəxs fəaliyyətə başlamışdır. Yeni yaradılmış müəssisələrin hesabına 7, fiziki şəxslər üzrə 431, mövcud müəssisə və təşkilatlarda 111 olmaqla, cəmi 549 daimi yeni iş yeri açılaraq işsiz və iş axtaran vətəndaşlar işlə təmin olunmuşdur. Rayonda aparılan tikinti, quruculuq, abadlıq işlərinə 135 nəfər, kənd təsərrüfatında mövsümü işlərə 1415 nəfər cəlb olunmuşdur. Yeni iş yerlərinin açılması istiqamətində müvafiq olaraq əlavə tədbirlər görülür.

2014-cü ilin doqquz ayında nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsi üzrə fəaliyyət göstərən fiziki şəxslərin işi nəzərə alınmaqla 497,0 min ton yük, 5 milyon 350,0 min nəfər sərnişin daşınmışdır ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən yük daşınması 6,2 faiz, sərnişin daşınması isə 7,2 faiz artmışdır.

Hesabat dövründə rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 500,0 min manatlıq rabitə xidməti göstərilmişdir. Göstərilən rabitə xidmətlərinin həcmi 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 25,0% artmışdır. Ümumi xidmətin 96,6%-i bilavasitə əhalinin payına düşür.

Cari ilin doqquz ayında əhalinin nominal pul gəlirləri 40 milyon 544,0 min manat olmuş, 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,3% artmışdır. Adambaşına düşən pul gəlirləri 4,1% artaraq 485,0 manat olmuşdur. Rayon üzrə bir işçinin orta aylıq əmək haqqı 268,0 manat təşkil edir. Bu isə 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,5% çoxdur. İlin əvvəlindən əhaliyə 118,9 milyon manatlıq istehlak malları satılmış və xidmətlər göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsi 6,5% artaraq 100,8 milyon manata, pullu xidmətlərin həcmi 4,8% çoxalaraq 16,0 milyon manata, iaşə xidmətlərinin həcmi 11,5% artaraq 2,1 milyon manata çatmışdır.

2014-cü il üçün rayonun yerli gəlirləri 5 milyon 104,0 min manat, xərcləri isə 16 milyon 323,0 min manat təsdiq olunmuşdur. 2014-cü ilin doqquz ayında büdcəyə 3 milyon 669,9 min manata qarşı 3 milyon 711,1 min manat vəsait daxil olmuş və ya 101,1% icra olunmuş, yerli xərclər 12 milyon 271,5 min manata qarşı 11 milyon 302,4 min manat və ya 92,1% icra edilmişdir.

01 oktyabr 2014-cü il tarixə pensiya və müavinət alanların sayı 13501 nəfər, ünvanlı dövlət sosial yardımı alanların sayı 1056 ailə olmuş, 145 kimsəsiz, ahıl və əlillərə sosial məişət xidməti göstərilmiş, 13 nəfər müharibə əlilinə pulsuz avtomobil verilmişdir.

2014-cü ilin doqquz ayı ərzində rayon məşğulluq mərkəzi tərəfindən 276 nəfər iş axtaran vətəndaş daimi iş yerləri ilə təmin olunmuş və 39 nəfərə işsiz statusu verilərək işsizlik müavinəti təyin edilmişdir. 16 nəfər peşə hazırlığı kurslarına, 18 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olumuşdur. Sahibkarlığın inkişafına dəstək olaraq rayonda fəaliyyət göstərən 2 bank və 1 bank olmayan kredit təşkilatlarının filialları tərəfindən sahibkarlara və vətəndaşlara ümumilikdə 9 milyon 165,0 min manat kredit verilmişdir ki, bu da 2013-cü ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 5 nəfər sahibkara 57,0 min manat məbləğində kredit verilmişdir.

2014-cü ilin doqquz ayında Neftçala elektrik şəbəkəsi tərəfindən rayona 108,0 milyon kvt. saat elektrik enerjisi verilmiş, o cümlədən elektrik enerjisinin 38,5 milyon kvt. saatı əhaliyə satılmış, həmin enerjinin dəyərinin 77,0 faizi ödənilmişdir. Əhali abonentlərinin sayğaclaşdırılması 99,0% təşkil edir.

2014-cü ilin doqquz ayı ərzində rayon qaz istismar sahəsi tərəfindən 8 milyon 893,0 min kub metr həcmində rayona təbii qaz verilmiş, o cümlədən əhaliyə satılan qazın ümumi həcmi 8 milyon 14,0 min kub metr olmuş, bunun da dəyərinin 101,0 faizi ödənilmişdir. Əhali abonentlərinin sayğaclaşdırılması 100% təşkil edir.

2014-cü ilin doqquz ayında rayonda fəaliyyət göstərən üç nərəbalıqartırma zavodları tərəfindən 6 milyon 180,0 min ədəd nərə cinsli körpə balıqlar yetişdirilərək Kür çayı vasitəsilə Xəzər dənizinə buraxılmışdır. Bu da 2013-cü ilin müvafiq dövründə olan göstəricidən 78,5% çoxdur.

Məruzədə hesabat dövründə aqrar sahədə müsbət irəliləyişlərin olduğu da diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, cari ilin doqquz ayında kənd təsərrüfatının ümumi məhsulu 63 milyon 641 min manat olmuşdur. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,8% artmışdır. Göstərilən dövrdə diri çəkidə 9448,2 ton ət, o cümlədən quş əti 6660,7 ton, 15147,3 ton süd, 3 milyon 193 min ədəd yumurta istehsal olunmuş, 2013-cü ilin doqquz ayı ilə müqayisədə ət istehsalı 2125,6 ton, süd istehsalı 68,6 ton, yumurta istehsalı 27 min ədəd artmışdır.

Bitkiçilik sahəsindən yüksək məhsul götürmək məqsədilə meliorativ tədbirlərin həyata keçirilməsində müəyyən işlər görülmüşdür. Cari ilin doqquz ayında 394 km suvarma kanalları, 153,7 km kollektor-dren sistemi lildən təmizlənmiş, suvarma kanallarında 56 ədəd, kollektor-drenlərdə 50 ədəd hidrotexniki qurğular və aqreqatlar əsaslı və cari təmir edilmişdir.

Heyvandarlığın inkişafı sahəsində müsbət irəliləyişlərə nail olmaqla 01 oktyabr 2014-cü il tarixə iri buynuzlu mal-qaranın baş sayı 41700 başa, qoyun və keçilərin baş sayı 129411 başa çatdırılmışdır. Rayonda baytarlıq xidmətinin işi qənaətbəxşdir.

Fermer və sahibkarların texnika və mineral gübrələrlə təminatını yaxşılaşdırmaq məqsədilə respublika "Aqrolizinq" ASC-nin Neftçala "Aqroservis" filialının fəaliyyəti genişləndirilərək müxtəlif növ texnikaların sayı 105 ədədə çatdırılmış, torpaq istifadəçilərinin mineral gübrələrlə təminatında müsbət irəliləyişlərə nail olunmuşdur.

Rayonun Xol zonasında 17000 hektardan yuxarı suvarılan əkin sahələrinin tam suvarma suyu ilə təmin olunmasında ciddi çətinliklərin yaranması ilə əlaqədar respublika rəhbərliyinin yaxından köməyilə burada 2006-cı ildə 25 kilometr uzunluğunda yeni kanalın çəkilməsinə başlanmışdır. Kanalın tikintisi 2008-2015-ci illərdə Azərbaycan Respublikasında "Əhalinin Ərzaq məhsulları ilə tam təminatına dair Dövlət Proqramı"na daxil edilmiş, kanalın 2008-2015-ci illər ərzində tikilib başa çatdırılması nəzərdə tutulmuşdur. İndiyə kimi kanalın tikintisinə 10,9 milyon manat vəsait sərf olunmuşdur. Kanalın tikintisinin aparıldığı ərazidə iri taxılçılıq təsərrüfatlarının yaradılması nəzərdə tutulmuşdur.

Hesabat məruzəsində rayon ərazisində təmir, tikinti və abadlıq işlərindən də ətraflı bəhs olunmuşdur. Qeyd olunmuşdur ki, hesabat dövründə rayon ərazisində tikinti, təmir, yol çəkilişində 16 milyon 600 min manatlıq, kommunal və sair xidmətlər sahəsində 182 min 387 manatlıq iş həcmi yerinə yetirilmişdir. Rayonun Heydər Əliyev prospektinin yenidən qurulması, yeni parkların salınması, prospekt boyunca yol kənarlarının abadlaşdırılması, rayon icra hakimiyyətinin, Heydər Əliyev Mərkəzinin inzibati binasının, Bayraq meydanının, Şəhidlər Kompleksinin, Kür çayı sahilində Bulvarın, yeni müasir saat qülləsinin tikintisi başa çatmışdır. İdman Kompleksinin tikintisi ilə əlaqədar ərazinin hazırlanması işləri davam etməkdədir.

Yuxarı Qaramanlı kəndində 360 şagird yerlik tam orta məktəbin, Kürkənd kəndində 200 şagird yerlik tam orta məktəbin tikintisi başa çataraq şagird və müəllim kollektivinin istifadəsinə verilmişdir. Aşağı Surra kəndində 360 şagird yerlik tam orta məktəbin əsaslı təmiri və əlavə 10 ədəd sinif otağının tikinti isə başa çatmaq üzrədir. Azərbaycan Respublikası Prezidentinin 29 may 2014-cü il tarixli sərəncamına əsasən, rayonunun sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 2 milyon manat, 37 min nəfər əhalinin yaşadığı 21 yaşayış məntəqəsini birləşdirən Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun tikintisi üçün isə 3 milyon manat ayrılmışdır.

Daha sonra məruzəçi hesabat dövründə rayonda ictimai-siyasi tədbirlərin hazırlanıb həyata keçirilməsindən danışmışdır. Qeyd etmişdir ki, ən mühüm ictimai-siyasi hadisə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza tarixi səfəri olmuşdur. Dövlət başçısı rayon icra hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmiş, Kür çayı sahilində istifadəyə verilən park-bulvar kompleksində aparılan abadlıq-quruculuq işləri ilə tanış olmuş, ictimaiyyətin nümayəndələri ilə görüşmüşdür.

Rayonda fəaliyyət göstərən "Gündoğar" rayon qəzetində ölkə rəhbərliyinin həyata keçirdiyi siyasət təbliğ olunmuş, sosial-iqtisadi məsələlər geniş işıqlandırılmış, milli-mənəvi dəyərlərin təbliğinə dair materiallar dərc edilmişdir.

9 ay ərzində rayon ərazisində ictimai-siyasi sabitliyin qorunub saxlanılması işlərinə diqqət yetirilmiş, partiyalar və qeyri-hökumət təşkilatları ilə bir sıra əlaqəli işlər aparılmış, din xadimləri ilə müntəzəm əlaqələr zamanı "Dini etiqad azadlığı haqqında" Qanunun müddəalarına riayət olunması onlara tövsiyə olunmuşdur.

Hesabat dövründə Qarabağ müharibəsi veteranları və əlilləri, şəhid ailələri, əlil qadınlar və digər kateqoriyadan olan insanlara diqqət və qayğı göstərilmiş, milli və dini bayramlar ərəfəsində onların ailələrinə baş çəkilmiş, bayram sovqatları paylanılmış və aztəminatlı ailələr üçün bayram süfrələri təşkil edilmişdir.

2014-cü ilin 9 ayı ərzində rayon təhsil şöbəsi və rayonun təhsil müəssisələri təlim-tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsi, tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə bir sıra işlər görmüşlər.

Ümummilli Lider Heydər Əliyev irsinin öyrənilməsi diqqət mərkəzində saxlanılmış, Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə rayon təhsil şöbəsinin Fəaliyyət Planı hazırlanmışdır. Bu plana əsasən ümumtəhsil müəssisələrində Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş inşa-yazı müsabiqəsinin seçimləri aparılaraq 31 qalib rayon turunda iştirak etmiş, bunlardan 1 nəfəri respublika inşa-yazı müsabiqəsində iştirak etmiş və VI yerə layiq görülmüşdür. "Şən və hazırcavablar" komandalarının rayon sempionatında şəhər 1 saylı tam orta əktəbinin komandakı I, Qədimkənd kənd tam orta məktəbinin komandası II, şəhər 3 saylı tam orta məktəbinin komandası isə III yeri tutmuşlar.

Respublika Fövqəladə Hallar Nazirliyinin Təhsil Nazirliyi ilə birgə "Fövqəladə hallar uşaqların gözü ilə" respublika müsabiqəsinin rayon turu uğurlu olmuş, 14 adda rəsm, model və əl işləri respublika Təşkilat Komitəsinə təqdim edilmiş və bunlardan biri respublika üzrə I yerə layiq görülmüşdür. Bununla yanaşı rayon məktəbliləri idman yarışlarında, hərbi idman oyunlarında da müsbət göstəricilərə nail olmuşlar.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının tapşırığına uyğun olaraq ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinə fevral-may ayları ərzində Ulu Öndər Heydər Əliyev irsinin öyrədilməsi məqsədilə rayonun Heydər Əliyev Mərkəzində dərslərin yüksək səviyyədə hazırlanıb keçirilməsi ilə bağlı bütün zəruri tədbirlər görülmüş və bu işlər nəzarətə götürülmüşdür. Ümumilikdə tərtib edilmiş qrafikə əsasən rayonun 28 tam orta məktəbindən 693 nəfər XI sinif şagirdi bu dərslərə cəlb edilmişdir. Dərslər may ayının 20-dək davam etdirilmişdir.

Ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində respublikanın gəzməli-görməli yerlərinə təşkil olunan turlarda Neftçala rayonundan olan məktəblilər də iştirak etmiş, rayon məktəblərindən seçilmiş 40 nəfər fəal şagird avqustun 28-dən 31-dək Gəncə şəhərində, Şəmkir və Göygöl rayonlarında ekskursiyalarda olmuşlar. Ekskursiya zamanı intellektual oyunlarda daha fəal iştirak edən rayonumuzun məktəbliləri ən yüksək nəticə göstərərək kubok qazanmışlar.

9 ayda mərkəzi rayon xəstəxanasının xidmət ərazisi üzrə 706 hamilə qeydiyyata götürülmüş, 696 körpə doğulmuş, tibbi əks göstərişlər istisna olmaqla doğulan körpələrin 99,9%-i doğum evlərində yoluxucu xəstəliklərə qarşı peyvənd olunmuşdur. 0-1 yaşda uşaq ölümü azalaraq 4,3 promilli olmuşdur ki, respublika üzrə bu göstərici 9,9 promillidir. 9 ay ərzində 411 uşaq üçün Elektron Sağlamlıq Kartı alınmış və uşaqların sağlamlıq vəziyyətini əks etdirən bütün tibbi məlumatlar həmin kartlara yüklənərək Səhiyyə Nazirliyinin ümumi lokal bazasına yerləşdirilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırığa əsasən fevral ayının 17-dən respublika əhalisinin pulsuz tibbi müayinədən keçirilməsinə başlanılmışdır. Rayon ərazisində əhalinin tibbi müayinədən keçirilməsini təmin etmək məqsədilə rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə komissiya yaradılmış, qrafik tərtib edilmişdir. Fevral ayının 17-dən may ayının 1-dək rayonun 52 yaşayış məntəqəsində yaşayan 67268 nəfər bu müayinələrdən keçmişdir ki, bunun 12050 nəfərini uşaq kontingenti təşkil etmişdir.

Həmçinin iyun ayında Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Milli Onkologiya Mərkəzinin yüksək ixtisaslı

həkim mütəxəssislərindən ibarət səyyar həkim briqadası onkoloji xəstəliklərin erkən aşkar olunması məqsədilə rayonumuzda müayinələr aparmışdır. Müayinələrdən keçənlərin ümumi sayı 1051 nəfər olmuşdur. Bu müayinələr nəticəsində 16 nəfərdə bu və ya digər onkoloji patologiyalar aşkar olunmuş və onlara daha ixtisaslı müayinə və müalicələr aparılması üçün Milli Onkologiya Mərkəzinə göndəriş verilmişdir.

Neftçala Mərkəzi Rayon Xəstəxanasının 2013-cü ilin avqust ayından başlayan əsaslı təmiri hesabat dövründə də davam etdirilmişdir.

Rayonda əhaliyə mədəni-xidmətin təşkili sahəsində rayon mədəniyyət və turizm şöbəsi tərəfindən bir sıra işlər həyata keçirilmişdir. Hesabat dövrü ərzində tarixi hadisələr, bayramlar və yubileylərlə bağlı geniş və maraqlı mədəni-kütləvi tədbirlər, ədəbi-bədii gecələr, görüşlər, kitab sərgiləri, oxucu konfransları və konsertlər təşkil olunmuşdur.

Hüseyn Cavid adına Mədəniyyət və İstirahət Parkında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş geniş konsert proqramı hazırlanaraq nümayiş etdirilmiş, bu münasibətlə Neftçala Rayon Dövlət Rəsm Qalereyasında həvəskar rəssamların təsviri sənət əsərlərindən ibarət sərgi təşkil edilmişdir.

Hesabat dövründə Heydər Əliyev Mərkəzinin tikintisi yekunlaşaraq istifadəyə verilmişdir. Mərkəzin açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir. Mərkəzdə Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto və eksponatlar sərgilənir. Mərkəzdə həmçinin elektron kitabxana, xalçaçılıq və toxuculuq, rəqs və xalq çalğı alətləri dərnəkləri fəaliyyət göstərir. Bu dərnəklər gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkil edilməsinə geniş imkanlar yaradacaqdır.

Neftçala rayon pigiyena və epidemiologiya mərkəzi 2014-cü ilin 9 ayı ərzində fəaliyyət sahələri üzrə bir sıra tədbirlər həyata keçirmiş, əhali arasında aşkar olunan yoluxucu xəstəliklərin aradan qaldırılması, onlara qarşı aparılan profilaktiki və əksepidemik tədbirlərin yerinə yetirilməsinə səy göstərilmişdir.

Hesabat dövrü ərzində rayon gənclər və İdman İdarəsi tərəfindən rayonda gənclərlə işin təşkili sahəsində, bədən tərbiyəsi və idmanın inkişafı məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, "Gənclər günü" münasibətilə rayonun fəal gənclərinin iştirakı ilə tədbir keçirilmiş, tədbirdə maraqlı əyləncəli konsert proqramları və yarışlar təşkil edilmişdir.

Hesabat ərzində əlamətdar günlər münasibətilə inşa yazı və rəsm müsabiqələri, müxtəlif aktual mövzularda dəyirmi masalar, sosioloji rəy sorğuları, bilik yarışları və viktorinalar keçirilmiş, həmçinin gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq məqsədilə bir sıra silsilə tədbirlər təşkil edilmişdir. Keçirilən tədbirlərdə əsasən milli-mənəvi dəyərlərimiz, ölkədə aparılan uğurlu siyasət təbliğ edilmiş, aparılan söhbətlərdə gənclərimizə yüksək vətənpərvərlik hissləri aşılanmış, əsas diqqət cəmiyyət üçün sağlam və müasir gənc yetişdirilməsinə yönəldilmişdir.

Rayon icra hakimiyyəti başçısı aparatı 2014-cü ilin doqquz ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsi ilə daimi yaxından əlaqə saxlamışdır. Hərbi çağırışçılar arasında vətənpərvərlik ruhunun yüksəldilməsi və onların çağırışdan yayınmasının qarşısının alınması üçün mütəmadi olaraq yerlərdə əhali arasında təbliğat və maarifləndirmə işləri aparılmışdır.

2014-cü ilin 9 ayı ərzində rayon polis şöbəsi tərəfindən rayon üzrə müxtəlif xarakterli 63 cinayət hadisəsi qeydə alınmışdır. Ümumilikdə qeydə alınmış cinayətlərin açılması 97,1% təşkil edir. Rayon üzrə ümumi cinayətlərin sayı 2013-cü ilin 9 ayına nisbətdə 2014-cü ilin doqquz ayında 8 cinayət faktı az olmuşdur.

2014-cü ilin 9 ayında rayon icra hakimiyyəti başçısı aparatı ərazidə nizam-intizamı, qayda-qanunu möhkəmləndirmək, kadrların tapşırılmış iş üçün məsuliyyət hissini artırmaq məqsədilə yerli icra orqanları ilə öz işini əlaqədə qurmuşdur.

2014-cü ilin 9 ayında icra hakimiyyəti başçısı tərəfindən 30 səyyar görüş və qəbul keçirilmiş, bu görüşlərdə 3180 nəfər iştirak etmişdir. Keçirilən görüşlərdə 157 nəfər 102 tənqidi qeyd və təkliflə çıxışlar etmişdir ki, bunlardan 15-i meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, 19-u yol və körpülərin inşası və ya təmiri, 1-i tibb müəssisələrinin təmiri və inşası, 4-ü təhsil müəssisələrinin təmiri və ya inşası, 16-sı elektrik təsərrüfatının yenidən qurulması, 16-sı "mavi yanacaq" ilə təminat, 11-i içməli su ilə təminat, 1-i kanalizasiya sisteminin yaradılması və yenidən qurulması, 4-ü abadlıq və quruculuq işlərinin aparılması, 1-i internetə qoşulma sürətinin artırılması və 14-ü digər məsələlərdən ibarət olmuşdur. Vətəndaşlar tərəfindən qaldırılan tənqidi qeyd və təkliflər nəzarətə götürülmüş, həlli istiqamətində aidiyyəti üzrə müvafiq yuxarı orqan və təşkilatlar qarşısında məsələlər qaldırılmış və həlli yerlərdə mümkün olan problemlərin aradan qaldırılmasından ötrü tədbirlər həyata keçirilmişdir

2014-cü ilin 9 ayında rayon icra hakimiyyəti başçısı aparatına ümumilikdə 680 ərizə, şikayət və təklif daxil olmuşdur. O cümlədən Prezident Administrasiyasından 167, Milli Məclisdən 8, mərkəzi orqanlardan 50, Nazirlər Kabinetindən 1 ərizə daxil olmuşdur. 454 ərizə bilavasitə vətəndaşlar tərəfindən rayon icra hakimiyyətinə ünvanlanmışdır.

Hesabat dövründə rayon icra hakimiyyətinə ünvanlanmış müraciətlər 2014-cü ilin 9 ayı ilə müqayisədə 70 müraciət çox olmuşdur. Artan müraciətlər tikinti materialı ilə köməklik olunması barədə olmuşdur.

2014-cü ilin 9 ayında Azərbaycan Respublikası Prezidenti Administrasiyasından 167 müraciət, o cümlədən 20 müraciət nəzarət qaydasında daxil olmuşdur. Daxil olmuş müraciətlərin 11-i tikinti barədə, 17-i evinin qəzalı olması, 21-i mənzillə təmin olunması və tikinti materialı ilə köməklik edilməsi, 17 və ya 10,1 %-i torpaq məsələləri, 4-ü əmək məsələləri, 5-i qəbul barədə, 5-i bələdiyyələrin fəaliyyəti, 10-u kommunal məsələlər, 9-u əhalinin sosial müdafiəsi məsələləri, 4-ü mədəniyyət məsələləri, 19-u birdəfəlik maddi yardım və məişət problemi, 36-ı digər məsələlər, 9-u kənd təsərrüfatı məsələləri barədə olmuşdur.

2013-cü ilin 9 ayında rayon icra hakimiyyəti başçısı tərəfindən 233 vətəndaş qəbul edilmişdir. O cümlədən, başçı aparatında 75 nəfər, səyyarı qəbullarda 158 nəfər vətəndaş qəbul edilmişdir.

Sözünə yekun vuran məruzəçi sonda bildirmişdir ki, rayon icra hakimiyyəti Azərbaycan Respublikası Prezidenti Zati-aliləri cənab İlham Əliyevin göstərişlərini, imzaladığı fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Qanunlarını əldə rəhbər tutaraq öz fəaliyyətini daha da genişləndirəcək, bütün sahələrdə inkişafa və tərəqqiyə nail olmaq üçün lazımi tədbirlər görəcəkdir.

Hesabat yığıncağında iştirak edən Azərbaycan Respublikası Milli Məclisi regional məsələlər komitəsinin sədri, rayonumuzun deputatı hörmətli Arif Rəhimzadə çıxış edərək 2014-cü ilin doqquz ayında qazanılan böyük nailiyyətlərlə yanaşı qarşıda duran məsul vəzifələrdən danışmışdır.

Məruzə ətrafında müzakirələr də canlı və maraqlı keçmişdir. Rayon maliyyə idarəsinin rəisi Rəşid Manafov, rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov, rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov, DSMF rayon şöbəsinin müdiri Zəfər Nağıyev, rayon gənclər və idman idarəsinin rəisi Yalçın Miriyev, rayon gigiyena və epidemiologiya mərkəzinin direktor əvəzi Əlisoltan Cəfərov və başqaları il ərzində gördükləri işlərdən danışmış, fikir və mülahizələrini bildirmişlər.

Hesabat yığıncağında müzakirə olunan məsələ ilə əlaqədar geniş qərar qəbul olunmuşdur.

Yığıncağın sonunda Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

Azərbaycan həqiqətlərini dünyaya tanıdan təşkilat: Heydər Əliyev Fondu

Fransa dünyanın ən böyük, aparıcı dövlətlərindən, fransızlar isə bəşəriyyətə bir-birindən dəyərli, mədəni töhfələr bəxş edən xalqlarındandır. Belə bir xalqın Azərbaycanı kifayət qədər tanımaması, qiymətləndirməməsi bizim üçün bağışlanmaz idi. Erməni lobbisi də məhz bundan istifadə edərək xalqımızı fransızların gözündən salır, onun haqqında müxtəlif yalanlar uydururdular. Fransanın BMT Təhlükəsizlik Şurasının və ATƏT-in Minsk qrupunun üzvü olduğunu nəzərə alsaq bu ölkədə Azərbaycanın, Azərbaycan mədəniyyətinin təbliğinə daha böyük ehtiyac duyulur.

Erməni təbliğatının uzun illərdən bəri apardığı işi heçə endirmək üçün konkret faktlar, məlumatlar üzərində qurulmuş daha güclü bir təbliğata çox ciddi ehtiyac vardı. Bu çətin işin, vəzifənin yerinə yetirilməsində Heydər Əliyev Fondu, Fondun rəhbəri Mehriban xanım Əliyeva da genişmiqyaslı tədbirlər həyata keçirir, Azərbaycan həqiqətlərini bütün dünyaya yayırlar. Son illər biz bunun canlı şahidi olmuşuq.

Azərbaycanın zəngin mədəni irsinin fransızlara daha yaxından tanıdılması istiqamətində Heydər Əliyev Fondunun fəaliyyəti, həyata keçirdiyi tədbirlər xüsusilə təqdirəlayiqdir. Fondun təşkil etdiyi tədbirlər nəticəsində vaxtı ilə Azərbaycan haqqında məlumatları az olan fransızlar indi ölkəmiz barədə geniş təsəvvürə malikdirlər.

Bu sözləri paytaxt sakini Jil Tertran Heydər Əliyev Fondunun təşkilatçılığı ilə, Azərbaycanın Fransadakı səfirliyinin dəstəyilə "Azərbaycan şəhərciyi" ilə tanışlıqdan və "Real" ansamblının çıxışından sonra AzərTAc-a müsahibəsində söyləyib. Deyib ki, ölkənizlə bağlı Parisdə keçirilən müxtəlif tədbirlərdə dəfələrlə iştirak etmişəm. Bu tədbirlərdən aldığım təəssüratların nəticəsində mən artıq Azərbaycana vurulmuşam. Elə bu vurğunluq nəticəsində Sen-Süplis meydanında təşkil olunan "şəhərciyə" dördüncü dəfədir ki, baş çəkirəm. "Şəhərcik"də nümayiş etdirilən Azərbaycanın müxtəlif nemətlərinin dadına baxmışam, tarixinizə, ədəbiyyatınıza, mədəniyyətinizə, incəsənətinizə, musiqinizə dair çoxlu kitablar və broşüralar əldə etmişəm, qədim xalılar, misgərlik məmulatları ilə yaxından tanış olmuşam.

İndi atıq bilirəm ki, Azərbaycan Asiya ilə Avropa arasında körpü rolunu oynayır. Bu körpü, eyni zamanda, müxtəlif mədəniyyətlərin qovuşmasında, xalqların bir-birlərinə yaxınlaşmasında müstəsna əhəmiyyətə malikdir. Sizi inandırmaq istərdim ki, bu gün hər hansı sadə fransızdan Azərbaycan haqqında soruşsanız, o, ölkəniz barədə çox şey deyə bilər. Bir neçə gündür meydanda səslənən Azərbaycan musiqisinə maraq göstərən fransızların sayının durmadan artması dediklərimə əyani sübutdur.

AzərTAc-ın xüsusi müxbiri Əsgər Əliyevin "Azərbaycan" qəzetinin 24 sentyabr 2014-cü il tarixli nömrəsində "Heydər Əliyev Fondunun Azərbaycanı fransızlara tanıtmaq istiqamətində fəaliyyəti təqdirəlayiqdir" sərlövhəli yazısından oxuduğum yuxarıdakı sətirlər məni hədsiz dərəcədə sevindirdi. Ona görə sevindirdi ki, bu gün sadə fransız da ölkəmiz haqqında məlumatlıdır, Azərbaycanı tanıyır, xalqımızın adət-ənənələrinə, mədəniyyətinə, tarixinə az-çox bələddir. Bu çox vacibir. Bu vacib işdə Heydər Əliyev Fondunun, Fondun rəhbəri Mehriban xanım Əliyevanın təşkilatçılığı çox mühüm rol oynayır. Özü də bu vacib təbliğat, Azərbaycanın tanıdılması, təqdim olunması istiqamətində aparılan iş təkcə Fransada deyil, dünyanın əksər ölkələrində həyata keçirilir. Bax, əsl vətənpərvərlik, əsl Vətən sevgisi budur. Bundan hər birimiz nümunə götürməliyik.

Bir neçə gün sonra biz daha möhtəşəm bir tədbirin — Sentyabrın 28-də Yunanıstanın paytaxtı Afinadakı "Akropol" muzeyində reallaşan 2015-ci ildə Azərbaycanda keçiriləcək ilk Avropa Oyunlarının Heydər Əliyev Fondu tərəfindən təşkil olunan təqdimatının şahidi olduq. Təqdimat mərasimində Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ilə birlikdə Yunanıstan Parlamentinin sədri, Baş nazirin müavini, inzibati islahatlar naziri, turizm naziri, deputatlar, idman ictimaiyyətinin nümayəndələri də iştirak edirdilər.

Həmişə olduğu kimi bu dəfə də ölkəmizin birinci xanımının çıxışını böyük diqqətlə dinlədik. İlk öncə Azərbaycan-Yunanıstan münasibətlərindən danışan Mehriban xanım 2015-ci ildə Bakıda keçiriləcək ilk Avropa oyunlarına hazırlıq barədə geniş məlumat verdi, Avropanın, o cümlədən Yunanıstanın yanacaq təminatında mühüm rol oynayacaq "Cənub" qaz dəhlizinin perspektivlərindən danışdı. Konkret faktlara, dəlillərə əsaslanan bu çıxış alqışlananda biz də daxili qürur hissi keçirdik, ürəkdən sevindik. Yunanıstanın inzibati islahatlar naziri Kiriakos Mitsotakisun, Yunanıstanın mədəniyyət nazirinin müavini Angela Gerekolun, Yunanıstanın Milli Olimpiya Komitəsinin sədri Spiros Kapralosun, Yunanıstanın kanoe idmanı üzrə Olimpiya çempionu Voyla Kozumbalinin çıxışlarındakı səmimiyyəti, dünyada bir çox xeyirxah layihələrə imza atan Heydər Əliyev Fonduna, Fondun prezidenti Mehriban xanım Əliyevaya, bütövlükdə ölkəmizə olan hörmət və ehtiramı görəndə bu sevincimiz daha da artdı. Əmin olduq ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, mədəniyyətimizin, incəsənətimizin təbliğində Heydər Əliyev Fondu doğrudan da nümunədir.

T.HƏSƏNOVA,
Xıllı qəsəbə 2 saylı tam orta məktəbinin müəllimi

Müəllimlər Gününün böyük sevinci

Müəllim əməyi, müəllim zəhməti. Kimlər faydalanmayıb, bəhrələnməyib bundan?! Həyatdakı bütün uğurlarımıza görə birinci növbədə müəllimlərimizə borcluyuq. Ulu Öndər Heydər Əliyevin ona dərs deyən müəllimlərini daim böyük məhəbbətlə, minnətdarlıqla xatırlaması hər birimiz üçün örnəkdir, nümunədir. Dünyanın tanınmış şəxsiyyətləri, böyük simaları da öz müəllimlərinə qarşı həmişə belə xoş duyğular bəsləmişlər. Elə buna görə dövlətimiz də müəllimlərə daim qayğı ilə yanaşır, onların iş, məişət şəraitlərinin yaxşılaşdırılması, rifah hallarının yüksəldilməsi üçün təsirli tədbirlər görür, qabaqcıl müəllimlərin əməyini yüksək qiymətləndirir.

İstər respublikamızda, istər rayonumuzda əldə olunan böyük uğurları, nailiyyətləri yaradan dövlətin qayğısı ilə şərəfli müəllim əməyinin birliyidir. Son bir neçə ildə Neftçalada neçə-neçə yeni müasir məktəbin, məktəbəqədər uşaq tərbiyə müəssisəsinin tikilərək istifadəyə verilməsi, əsaslı təmir olunması təlim-tərbiyə işinin daha da yüksəlməsinə öz müsbət təsirini göstərir. Ali məktəblərə tələbə qəbulunda bunu bir daha əyani şəkildə gördük. 215 nəfər məzunun bu məktəblərdə təhsillərini davam etdirmək hüququ qazanmaları hər birimizi ürəkdən sevindirir.

Şübhəsiz, qazanılan bu uğurlarda böyük zəhmətləri olan müəllimlərimizin sevinməyə, fərəhlənməyə haqları da var. Beynəlxalq Müəllimlər Günündə onlar məhz bu xoş hisslərlə, duyğularla toplanmışdılar Neftçala şəhərindəki Gənclərin resurs mərkəzinə.

Həmişə olduğu kimi bu tədbiri bu dəfə də şair təbiətli, şair duyğulu müəllimə Zeynəb Muradova aparırdı. Müəllim haqqında söylədiyi şeirlərdəki, qiymətli kəlamlardakı vurğunluq da yeqin elə buradan qaynaqlanırdı.

Zeynəb müəllimə təbii olaraq ilk sözü rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimova verməli idi və elə də etdi. Son illərdə təhsilimizdəki uğurlardan, bu mühüm sahəyə göstərilən qayğı və diqqətdən ürəkdolusu söhbət açan Əjdər müəllim haqlı olaraq bütün bu uğurların müəllimlərimizin zəhmətinin bəhrəsi olduğunu vurğuladı və onları əziz gün — Beynəlxalq Müəllimlər Günü münasibətilə ürəkdən təbrik etdi.

Şəhər 1 saylı tam orta məktəbinin şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiya tədbirə yeni bir ovqat gətirdi. 4 saylı tam orta məktəbinin 9-cu sinif şagirdi Aysel Cəfərovanın öz sevimli müəllimləri haqqında söylədiyi şeirləri həyəcansız dinləmək olmurdu.

Belə xoş gündə müəllimlərin yanında olan rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin də deməyə sözü çox idi. O, rayonda fəaliyyətə başladığı ilk gündən təhsilin inkişafına diqqət göstərmiş, bu mühüm sahənin uğurları üçün əlindən gələni əsirgəməmişdir. Son illər rayonumuzda neçə-neçə yeni məktəbin öz qapılarını müəllim və şagirdlərin üzünə açması məhz bununla bağlıdır. Bütün bunları dövlətimizin rayon təhsilinin inkişafına göstərdiyi böyük qayğısı kimi dəyərləndirən rayon rəhbəri sonda müəllimləri təbrik edərək onlara ən səmimi arzularını bildirdi.

Rayon rəhbərinin bu səmimi təbrikinə rayon icra hakimiyyəti başçısının müavini Gültəkin xanım Sadıqova, rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov, rayon telekommunikasiya qovşağının rəisi Zülfəli Muradov və neçə-neçə başqaları da ürəkdən qoşuldular. Onlar da müəllimlərə xoş günlər arzuladılar.

Belə gözəl, əlamətdar gündə rayon təhsilinin inkişafında, uğurların əldə edilməsində layiqli xidmətləri olan müəllimlərin zəhmətlərinin qiymətləndirilməsi də unudulmamışdı. Tədbir iştirakçılarının alqışları altında onların bir qrupuna rayon icra hakimiyyətinin və rayon təhsil şöbəsinin Fəxri fərmanlarının təqdim edilməsi hamının ürəyindən oldu.

Bir-birindən dəyərli sözlərlə, söhbətlərlə, musiqi ilə, əyləncəli viktorinalarla, maraqlı oyunlarla müşayiət olunan tədbir beləcə qaldı yaddaşlarda.

Murad ƏHMƏDOV

***

Prezident İlham Əliyevin 30 sentyabr 2014-cü il tarixli sərəncamları ilə Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə bir qrup təhsil işçisi ölkənin fəxri adları ilə, medallarla təltif edilmişdir. Təltif olunanlar arasında şəhər 4 saylı tam orta məktəbinin müəllimi Məlahət Süleyman qızı Cəfərova da vardır. O, dövlət başçısının müvafiq sərəncamına görə "Tərəqqi" medalına layiq görülmüşdür.

Bu münasibətlə Məlahət müəlliməni ürəkdən təbrik edir, ona gələcək fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

Prokurorluq işçiləri peşə bayramlarını qeyd etdilər

Mərkəzi qarşısındakı abidəsi önünə gələrək buraya əklil qoymuş, gül dəstələri düzmüşlər. Əklilqoyma mərasimində rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri və digər qonaqlar da iştirak etmişlər.

Sonra tədbir rayon prokurorluğunda davam etdirilmişdir. Prokurorluq orqanlarının keçdiyi şərəfli və çətin yola geniş nəzər salan, bununla əlaqədar konkret faktları dilə gətirən rayon prokuroru Pərvin Quliyev bu işdə Ummummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışmışdır. Qeyd etmişdir ki, Ulu Öndərin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev də ölkəmizdə prokurorluq orqanlarının yenidən qurulması, müasir tələblərə uyğunlaşdırılması üçün təsirli tədbirlər görür. Göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən rayon prokuroru əminliklə vurğulamışdır ki, prokurorluğun əməkdaşları bundan sonra da üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcək, rayonda qanunçuluğun möhkəmləndirilməsi, insanların hüquq və azadlıqlarının qorunması üçün ardıcıl tədbirlər həyata keçirəcəklər.

Oktyabrın 1-də prokurorluq işçilərinin peşə bayramı günü ilə əlaqədar ölkəmizin hər yerində silsilə tədbirlər həyata keçirilmişdir. Bu münasibətlə həmin gün Baş Prokurorluğun, respublika Hərbi və Bakı şəhər prokurorluğu orqanlarının kollektivləri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi üzərinə əklil qoymuş, bu dahi insana özlərinin dərin hörmət və ehtiramlarını bildirmişlər.

Sonra Şəhidlər xiyabanında olan prokurorluq işçiləri ölkəmizin müstəqilliyi və bütövlüyü uğrunda canlarını qurban verən qəhrəman Vətən övladlarının xatirəsini də ehtiram hissi ilə yad etmişlər. Şəhid məzarlarının üzərinə gül dəstələri düzülmüş, abidə önünə əklil qoyulmuşdur.

Həmin gün rayonumuzda da bayram əhvali-ruhiyyəsi vardı. Burada da prokurorluq işçiləri Ulu Öndərin Heydər Əliyev

Beynəlxalq Sülh Günü

Yer üzündə müharibə ocaqlarının gündən-günə genişlənib artdığı, çoxaldığı bir dövrdə beynəlxalq sülhə, ölkələrə, xalqlara dinclik, əmin-amanlıq gətirilməsinə daha artıq ehtiyac vardır. İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü ilə hər il sentyabrın 21-də "Beynəlxalq Sülh Günü"nün keçirilməsi də məhz bu məqsədə xidmət edir, bununla bağlı bir-birindən maraqlı, təsirli tədbirlər hazırlanıb həyata keçirilir.

Bu il də belə olmuşdur. "Beynəlxalq Sülh Günü"nə hazırlıqla bağlı rayon icra hakimiyyətində xüsusi aylıq elan olunmuş, bu münasibətlə geniş tədbirlər planı hazırlanmışdır. Həmin plana əsasən idarə və təşkilatlarda bir-birindən maraqlı tədbirlər təşkil olunmuşdur. Keçirilən tədbirlərdə sülh və əmin-amanlığın əhəmiyyəti geniş şəkildə təbliğ edilmişdir.

Aylıq çərçivəsində rayonun təhsil müəssisələrində maraqlı mövzularda seminarlar, disputlar keçirilmişdir. Təhsil nazirinin əmrinə müvafiq olaraq sentyabrın 15-də ümumtəhsil məktəblərinin V-XI siniflərində "Mənim Vətənim — doğma yurdum" mövzusuna həsr olunan ilk dərs saatında daha çox sülh haqqında məsələlərə toxunulmuş, ölkə rəhbərliyinin sülhsevər siyasətindən, beynəlxalq sülhün möhkəmləndirilməsindən ötrü həyata keçirdiyi ardıcıl tədbirlərdən bəhs edilmişdir. Aylıq ərzində məktəblilər arasında "Sülh" mövzusunda inşa-yazı və rəsm müsabiqələri keçirilmiş, rayon Dövlət rəsm qalereyasında bu mövzuda məktəblilərin əl işlərindən ibarət sərgi nümayiş etdirilmişdir.

Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində də aylıq çərçivəsində maraqlı tədbirlər həyata keçirilmiş, "21 sentyabr Beynəlxalq Sülh Günü" mövzusunda söhbətlər aparılmış, kitab sərgiləri təşkil edilmişdir.

Son zamanlar rayonun ən böyük təbliğat mərkəzinə çevrilən Heydər Əliyev Mərkəzində aylıq çərçivəsində keçirilən tədbirlər diqqəti daha çox cəlb etmişdir. Burada "Ölkəmizdə sülhün və əmin-amanlığın bərqərar olunması sahəsində Ümummilli Lider Heydər Əliyevin danılmaz rolu" mövzusunda mühazirələr oxunmuş, sülh və dözümlülük mədəniyyətinin təbliği ilə bağlı maarifləndirmə işləri aparılmış, həmin mövzuda film nümayiş etdirilmişdir.

Aylıq çərçivəsində təşkil olunaraq keçirilən bütün tədbirlərdə müharibə şəraitində yaşayan ölkəmiz üçün sülhün və əmin-amanlığın necə bir böyük əhəmiyyət kəsb etdiyi geniş şəkildə diqqətə çatdırılmışdır.

Şəhidlər unudulmur

Bu günlərdə Kürkənd kəndində şəhid İlham Dadaşovun yaşadığı evin divarına xatirə lövhəsinin vurulması ilə bağlı yaddaqalan bir tədbir keçirilmişdir. Şəhid İlham Adil oğlu Dadaşov 1973-cü il iyul ayının 19-da Kürkənd kəndində anadan olub, 1992-ci il sentyabr ayının 19-da Ağdam rayonunun "Fərrux" dağı yüksəkliyi uğrundakı döyüşlərdə itkin düşüb. Şəhidin işıqlı xatirəsi anadan olub böyüdüyü Kürkənd kəndində, eləcə də oxuduğu, təhsil aldığı Kürkənd kənd məktəbində heç vaxt unudulub yaddan çıxmır, həmişə dərin ehtiram hissi ilə xatırlanaraq yad edilir.

Xatirə lövhəsinin açılışına həsr olunmuş tədbiri giriş sözü ilə rayon icra hakimiyyəti başçısının Kürkənd kənd inzibati ərazisi üzrə nümayəndəsi Elşad Əzizov açaraq şəhidin anası Elmira Dadaşovaya başsağlığı verdi, ölkəmizdə və rayonumuzda Qarabağ müharibəsi şəhidlərinə, şəhid ailələrinə və müharibə veteranlarına göstərilən diqqət və qayğıdan danışdı. Qeyd etdi ki, rayon rəhbərliyinin təşəbbüsü ilə Neftçala şəhərində şəhidlərimizin ruhuna abidə kompleksi ucaldılmış, rayonda şəhid ailələrinə diqqət və qayğı daha da artırılmışdır.

Tədbirdə çıxış edən Kürkənd kənd məktəbinin direktoru Oqtay Sərdarov şəhid İlham Dadaşovun yaşadığı evin divarına xatirə lövhəsinin vurulmasını ürəkdən təqdir etdi, İlhamın necə bir fəal, təşəbbüskar, yoldaşlarına qarşı diqqətli və qayğıkeş şagird olmasından, dərslərindən necə əla qiymətlər almasından danışdı. Oqtay müəllim şəhidin anasına başsağlığı verərək dedi ki, onun övladı heç də ölməyib, o həmişə diridir, həmişə bizimlə birlikdədir, gənclərimizi, cavanlarımızı həmişə mərdliyə, mübarizliyə, Vətənin azadlığı və müstəqilliyi uğrunda mübarizəyə səsləyir.

Şəhidin yaşadığı evin divarına xatirə lövhəsinin vurulmasına həsr olunmuş tədbirdə kənd ağsaqqalı Adil Dadaşov, kənd bələdiyyəsinin sədri Rövşən Quliyev, şəhidin yaşıdı və döyüş yoldaşı Adil Mövsümov və bir çox başqaları da çıxış edərək İlham Dadaşov haqqında xatirələrini danışdı, onun işıqlı xatirəsinin heç vaxt yaddan çıxmayacağını bildirdilər.

Sonra söz şəhidin anası Elmira Dadaşovaya verildi. Elmira xanım şəhidlərimizin ruhuna, Qarabağ müharibəsi şəhidlərinin ailələrinə, müharibə veteranlarına göstərilən yüksək diqqətə və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə, rayonumuzun rəhbərliyinə özünün səmimi minnətdarlığını və təşəkkürünü bildirdi, xatirə lövhəsinin üzərindəki rəmzi örtüyü götürərək onu açdı. Tədbirə toplaşan kənd sakinləri və məktəblilər xatirə lövhəsinin önünə tər çiçək dəstələri düzdülər.

Sonda şəhid İlham Dadaşovun ruhuna dualar oxundu, ehsan verildi.

Kəsilən qurbanlarınız qəbul olunsun

Milli adət-ənənələrimizə və islami dəyərlərimizə söykənən bayramlarımız çoxdur. Onların arasında müqəddəs Qurban bayramının öz yeri var. Cəmiyyətdə qardaşlıq və humanizm duyğularını daha da gücləndirən, xeyirxahlığın, bərabərliyin, fədakarlığın artmasına xidmət edən Qurban mərasimləri bütün islam aləmində olduğu kimi ölkəmizdə də yüksək əhvali-ruhiyyə ilə qeyd edilir. Belə nurlu, müqəddəs bayram günlərində dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edən insanlar Vətən uğrunda canlarını qurban verən şəhidləri də unutmur, onların əziz xatirəsini də ehtiramla yad edirlər.

İnsanları saflığa, mənəvi təmizliyə çağıran bu gözəl, müqəddəs bayram rayonumuzda da həmişə böyük sevinclə qeyd edilir, ürəklərdə xoş duyğular oyadır. Ədalətə, haqqa yaxın olan neftçalalılar da qurbanlarını kəsir, Ulu Yaradana dualar edir, niyyətlərini istəyirlər.

Müqəddəs Qurban bayramı bu il də ümumxalq, ümumrayon sevinci ilə keçdi. İnsanlar böyük fərəh hissi yaşadılar. Allah yolunda qurbanlarını kəsdilər, Uca Yaradana dualar etdilər. Bununla yanaşı ayrı-ayrı idarə və müəssisələrdə, inzibati ərazilərdə də qurbanlar kəsildi, kollektiv üzvlərilə yanaşı şəhid ailələrinə, imkansızlara da qurban payı verildi.

Bu əziz, müqəddəs bayram insanları bir-birlərinə bir qədər də yaxınlaşdırdı, doğmalaşdırdı. Həmin günlərdə elə bir ailə olmadı ki, onun evində qazan qaynamasın, qurban əti bişməsin, süfrə açılmasın. Əziz bayram münasibətilə bir-birlərini təbrik edən insanların xoş arzularına, diləklərinə qoşularaq biz də deyirik:

— Kəsilən qurbanlarınız qəbul olunsun, əziz neftçalalılar!

* * *

Qurban bayramı ərəfəsində şəhərdəki yeni ticarət mərkəzində təşkil olunmuş yarmarka sakinlərin sevincini daha da artırmışdı. Satışa çıxarılan müxtəlif kənd təsərrüfatı məhsulları kifayət qədər idi. Hamısı da bazar qiymətlərindən xeyli ucuz qiymətə. Elə buna görə mərkəzə gələnlər razılıqlarını bildirirdilər.

Kənd təsərrüfatı məhsulları ilə yanaşı adamlar qurbanlıq heyvanların alınmasında da çətinlik çəkmədilər. Çəkilərinə görə onların qiymətləri müxtəlif olsa da münasib idi. Hər kəs istədiyi heyvanı ala bilirdi. Haqqa yaxın olan satıcılar, fermerlər güzəştə getməyi bacarırdılar.

Yarmarkanın keçirildiyi günlərdə ticarət mərkəzində əsl canlanma yaşandı. Buradakı ucuzluq, qiymətlərin münasib olması insanların bayram əhvaili-ruhiyyəsini daha da yüksəltmiş, onlarda xoş ovqat yaratmışdı.

Taxıl əkini başlandı

Dədə-babadan çörək müqəddəs sayılıb, həmişə əziz tutulub, çörəyin yerə düşən giləsini öpüb göz üstünə qoyublar. Min illər keçməsinə, elmin, texnologiyanın yüksək səviyyədə inkişaf etməsinə baxmayaraq çörək bu gün də əhəmiyyətini itirməyib, onu bütövlükdə əvəz edən ikinci bir qida maddəsi yoxdur.

Çörəyimizin bol olmasını istəyiriksə, gərək taxıl istehsalını, xüsusilə buğda əkinini daim diqqət mərkəzində saxlayaq. Bütün dünyada ərzaq təhlükəsizliyinin ön plana çəkildiyi bir vaxtda bu xüsusilə böyük əhəmiyyət kəsb edir. Ölkəmizdə də bununla əlaqədar geniş tədbirlər həyata keçirilir. Buğda əkinləri ildən-ilə artırılır, bu işlə məşğul olanlara dövlət tərəfindən güzəştlər olunur, konpensasiyalar verilir. Şübhəsiz, bu, fermerləri daha yaxşı işləməyə ruhlandırır.

Taxıl istehsalı rayonumuzda da daim diqqət mərkəzindədir. Ötən ilin payızında 50 min hektara yaxın sahəyə toxum səpilmişdi. Əkin aqrotexniki qaydada aparıldığından hamı bol məhsulun əldə edilməsinə əmin idi. Amma uzun müddət havaların son dərəcə quraq və isti keçməsi, yağışların yağmaması məhsuldarlığa ciddi şəkildə ziyan vurdu. Dəmyə sahələrdə bu özünü xüsusilə qabarıq şəkildə göstərdi.

Ona görə fermerlər, taxılçılıqla məşğul olan insanlar bu il taxıl əkininə xüsusilə böyük məsuliyyətlə yanaşırlar. Nəzərdə tutulan aqrotexniki tədbirlər ardıcıllıqla yerinə yetirilir. Mexanizatorlar keyfiyyətli şum aparıblar. Torpağı canlandırmaq, qüvvətləndirmək üçün şum altına kifayət qədər mineral gübrə verilib. Bununla yanaşı məhsuldarlığa yaxşı təsir göstərən üzvi gübrədən, peyindən də geniş şəkildə isifadə olunub. Səpində iştirak edən mexanizmlərin sazlanması, qaydaya salınması da diqqət mərkəzində olub.

Bir sözlə, bu gün kənddə hamı taxıl əkinini vaxtında və aqrotexniki qaydada həyata keçirmək, bol məhsulun təməlini qoymaq haqqında düşünür. Əkin bu il də rayonda ötən ilki səviyyədə olacaq. Artıq bu işə başlanıb, toxumsəpən aqreqatlar sahələrə çıxarılıb. Havalar əl verdikcə yeqin daha sürətlə, daha mütəşəkkilliklə davam edəcək.

Quruculuq, abadlıq işləri davam edir

"AXMAZ"IN ÜZƏRİNDƏN SALINACAQ YENİ YOL ŞƏHƏRİMİZİ BÜTÖVLƏŞDİRƏCƏK

Qəzetimizin ötən sayında "Quruculuq, abadlıq işləri davam edir" rubrikalı yazıda şəhərimizi yarıya bölən "Axmaz" gölünün aşağı hissəsinin, şəhər stadionuna yaxın ərazisinin yenidən qazılması, işlərin davam etdirilməsi barədə məlumat vermişdik. Bu dəfə isə "Axmaz"ın yuxarı hissəsində — rayon mərkəzi xəstəxanasına yaxın ərazidə qızğın iş gedirdi. Bir neçə ekskavator gölün sol sahilini qazmaqla məşğul idi. Amma böyük çətinliklə. Havaların neçə vaxtdan bəri son dərəcə isti, quraq keçməsinə baxmayaraq gölün dibi hələ də qurumamışdı. Ekskavatorlardan birinin burada batması da bununla bağlı idi.



Yeri gəlmişkən deyək ki, belə hadisələrlə əvvəllər də qarşılaşmışdıq. Şəhər stadionuna yaxın ərazidə də ekskavatorlar dəfələrlə batmışdılar. Ümumiyyətlə, "Axmaz"da nəzərdə tutulmuş ekoloji sağlamlaşdırma, abadlaşdırma tədbirləri, xüsusilə gölün dibinin qazılaraq dərinləşdirilməsi heç də asan həyata keçmir. Yeni ərazidə ekskavatorun çox hissəsinin yerin təkinə getməsi bunu bir daha əyani şəkildə göstərdi. Əvvəlki vaxtlarda olduğu kimi batan ekskavatorun çıxarılması bu dəfə də ciddi çətinliyə səbəb olmuşdu.

Əraziyə cəlb olunmuş güclü buldozer isə buradakı piyada körpüsünün ətrafını möhkəmləndirməklə məşğul idi. Öyrəndik ki, vaxtilə çəkilən bu taxta körpünün yerində yeni müasir yol salınacaq. 20 Yanvar küçəsinin davamı olacaq bu yol xəstəxananın qarşısında rayonun Həsənabad qəsəbəsinə uzanan mərkəzi yola birləşdiriləcəkdir. Bu həm şəhərimizi bütövləşdirəcək, həm də gediş-gəlişi xeyli dərəcədə asanlaşdıracaqdır. Ona görə başlanmış yeni layihə hamının böyük sevincinə səbəb olmuşdu. Rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov bu sevinci belə ifadə etdi:

— Yeni yolun çəkilişi bizim üçün xüsusilə maraqlıdır. Əvvəla, salınacaq müasir yol şəhərimizi birləşdirəcək, bütövləşdirəcək, bu əraziyə yeni gözəllik bəxş edəcək. Digər tərəfdən təcili yardım çağırışları zamanı xəstələrin köməyinə daha tez çatacağıq. Yeni yol həm də yanacağa xeyli qənaətdir. Ona görə rayon rəhbərinin bu təşəbbüsü hər birimizin ürəyindəndir. Burada çalışan bütün işçilərə, peşə sahiblərinə, mütəxəssislərə uğur arzulayırıq.

Şad xəbər körpüdən keçənlərin hamısını şadlandırmışdı. Şəhər sakini Allahverdi Mikayılov isə belə dedi:

— Son illər Neftçala tanınmaz dərəcədə dəyişib. Hər yanda bir təzəlik, yenilik var. Şəhərimizin gecəsini gündüzündən ayırmaq olmur. Vaxtı ilə qonaq gələndə xəcalət çəkirdik. İndi isə qurulanları, yaradılanları onlara böyük sevinclə, həvəslə təqdim edirik. Heydər Əliyev prospektindəki Heydər Əliyev Mərkəzi, Kür sahilindəki Bayraq meydanı, bulvar hər birimiz üçün qürur mənbəyidir. "Axmaz"ın üstündən keçərək xəstəxanaya gedən yolun tamamilə yenidən qurulacağı xəbəri də bizi çox sevindirib. Nəzərdə tutulan işlərin tezliklə başa çatmasını arzulayırıq.

Körpüdən keçən hər kəs bir anlığa da olsa dayanaraq ətrafı seyr edir, görülən işləri maraqla izləyirdi. Biləndə ki "Axmaz"ın üstündən maşın yolu salınacaq çox sevinirdilər. Şəhər sakinləri Ramiz Quliyev, Əvəz Cəfərov, Şahin Əsədov və neçə-neçə başqaları bizdən xahiş etdilər ki, bu gözəl layihəyə görə onların səmimi minnətdarlığını rayon rəhbərliyinə çatdıraq.

F.AĞAYEV,
"Gündoğar"ın müxbiri

RAYONUMUZUN ƏN QƏDİM MƏDƏNİYYƏT OCAĞI – XILLI QƏSƏBƏ KİTABXANASI

Rayonumuzun ən qədim yaşayış məntəqələrindən sayılan Xıllıda təhsil ocağı kimi, mədəniyyət ocağının tarixi də ötən əsrin əvvələrinə gedib çıxır. Qəsəbə sakini mərhum Elşad Məhərrəmovun "Xıllı" kitabında bununla bağlı çox maraqlı məlumatlar vardır. Yaşlı insanlar kitabxananın yaradıcısını — Qulubəy Nəsir oğlu Quliyevi yaxşı xatırlayırlar. Dövrünün maarifpərvər ziyalısı olan bu şəxs gözəl anlayırdı ki, insanları maarifləndirmək üçün kitabxanaların da rolu böyükdür. Elə buna görə də o, tərəddüd etmədən şəxsi dükanının iki otağından birini kitabxana üçün ayırmışdı. İlk günlər burada 150-yə yaxın kitab toplanmışdı. Əksəriyyətinin Təbrizdə, İstambulda nəşr olunduğu bu kitabların oxucuları durmadan artırdı. Elə kitablar vardı ki, oxucu onları dəfələrlə oxumalı olurdu. Abdulla Şaiqin "İki uşaq", "Bədbəxt ailə",

"Tülkü və xoruz", S.M.Qənizadənin "Tülkü və Çök-Çök bəy", M.Həsənzadənin "Qəzəlliyati - S.Ə.Şirvani", Ə.Haqverdiyevin "Ata və oğul", A.Səhhətin "Sınıq saz", C.Məmmədquluzadənin "Məlik Məmməd" kitabları bu dövriyyədə xüsusi yer tuturdu.

Kitabxanada kitablarla yanaşı mətbuata da böyük ehtiyac duyulurdu. Mətbuatı almadan ölkədə baş verən hadisələri izləmək, gündəlik məlumatlardan xəbər tutmaq mümkün deyildi. Bu işdə onların köməyinə "Bakinski" və "Qızılağac" paraxodlarının bosmanı Qafur və matros Mahmud gəldilər. Onların müntəzəm olaraq Xıllıya gətirdikləri qəzetlər əldən-ələ gəzirdi. Maraqlıdır ki, həmin qəzetlərdən biri bu gün də qorunub saxlanılmaqdadır. Yazıçı Sara Rəhimova Qulubəy Quliyevin əvəzsiz kitabxana fəaliyyəti barədə "Ədəbiyyat və incəsənət" qəzetinin 5 fevral 1966-ci il tarixli nömrəsində belə yazırdı: Bu kitabxananı 1919-cu ildə Q.Quliyev adlı bir şəxs təşkil etmişdir. Göstərdiyi xidmətinə görə Xıllı camaatı, xıllılı ziyalılar bu gün də bu işıqlı şəxsi böyük minnətdarlıq hissilə yad edir, xatırlayırlar.

Xalqımızın böyük oğlu Nəriman Nərimanovun Xıllıya gəlişi, kitabxanada olması xüsusilə unudulmazdır. Bu hadisə 1921-ci ilin yayında baş vermişdir. S.Ağamalıoğlu ilə Xıllı dairəsinə gələn N.Nərimanovu Ağababa Axundzadə, Mirzə Əbülhəsən Axundov, Kərbəlayi Xəlil, Qulubəy Quliyev, İsgəndər Məmmədov, Əjdər Əsgərov, Ələkbər Əliyev kimi tanınmış şəxslər, ziyalılar qarşılayırlar. N.Nərimanov Xıllıda kitabxananın olmasına çox sevinir və ilk mədəniyyət ocağının yaradıcısına — Qulubəy Quliyevə öz səmimi təşəkkürünü bildirir. Söz verir ki, kitabxana üçün çoxlu əlavə ədəbiyyat göndərəcəkdir. O sözünə əməl edir. Çox keçmir ki, Bakıdan kitabxananın ünvanına 12 kitab və qəzet bağlamaları gəlir. Bunlar N.Nərimanovun vəd etdiyi müxtəlif məzmunlu kitab və mətbuat nümunələri idi. M.Ə.Sabirin, M.S.Ordubadinin, A.Şaiqin, N.Nərimanovun əsərləri, habelə "Min bir gecə" nağılı, "Sərgüzəşti yetiman", "Riyazül aşiqeyn" kitabları oxucular arasında xüsusilə böyük maraq doğurmuşdu.

1923-cü ildə kitabxanada çalışmış İsgəndər Məmmədovun xatirələri də maraqlıdır. Onun dediklərindən aydın olur ki, həmin dövrdə kitabxana üçün kitabları Bakıdan, Salyan qəzasından və yerli mağazalardan alırmışlar. Onların sayının minə yaxınlaşması göstərir ki, kitabxananın fondu durmadan genişlənmiş, oxucuların sayı getdikcə artmağa başlamışdır. Bu dövrdə kitabxanada gecə kurslarının təşkil olunması onun cəmiyyət həyatındakı rolunu daha da genişləndirmişdir. Mərhum həmyerlimiz, respublikanın Əməkdar müəllimi Ələkbər Əliyevin dərs dediyi bu kurslarda çoxlu sayda insanlar savadsızlıqlarını ləğv edərək ictimai həyatın müxtəlif sahələrində çalışmağa başlamışdılar.

Ötən əsrin əllinci illərindən sonra kitabxana özünün yeni inkişaf mərhələsinə qədəm qoyur. 1962-ci ildə Xıllı qəsəbə kitabxanasına "Əla işləyən kitabxana" adının verilməsi əlamətdar hadisə idi. Bu böyük uğurda tanınmış kitabxanaşünas-biblioqraf Seyfulla Həmzəyevin xidməti xüsusilə böyük olmuşdu. Məhz onun sayəsində Xıllı qəsəbə kitabxanası o vaxtlar rayon kitabxanalarının metodik mərkəzinə çevrilmişdi. Kitabxana işi üzrə tanınmış alim, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) kitabxanaçılıq fakultəsinin müəllimi Sahib Rzayevin qələmə aldığı "S.Vurğun adına Xıllı qəsəbə kitabxanası" adlı kitabı təkcə metodik vəsait kimi deyil, həm də dərslik kimi çox qiymətli idi.

Qəsəbədə Mehmanov qardaşlarının ikimərtəbəli evində yerləşən bu kitabxana sonrakı illərdə də mədəni mərkəz rolunu bacarıqla yerinə yetirmişdir. O dövrdə nəşr olunan çap məhsulları hesabına kitabxananın kitab fondu xeyli dərəcədə genişlənmişdi. Bu qiymətli xəzinədən minlərlə oxucu istifadə edərək elm və savadını artırır, mütaliə mədəniyyətini genişləndirirdi. Kitabxanada nadir kitabların, əlyazmaların toplanması xüsusilə qiymətli idi. Bu, kitabxanaya yeni oxucuların cəlb olunmasına da öz müsbət təsirini göstərirdi. Vaxtaşırı keçirilən mədəni-kütləvi tədbirlər oxucular arasında böyük maraq doğurur, onların asudə vaxtlarının təşkilində mühüm rol oynayırdı.

Kitabxanada sözün əsl mənasında peşələrini ürəkdən sevən, bu işə qəlbən bağlanan insanlar çalışırdılar. Seyfulla Həmzəyevi, Zinyət Həmzəyevanı, Minurə Cavadovanı, Tünzalə Tağıyevanı və neçə-neçə başqalarını oxucular, qəsəbə sakinləri bu gün də böyük hörmətlə, ehtiramla xatırlayırlar. Öz istiqanlılıqları, peşəkarlıqları ilə oucuların qəlbinə yol tapan bu insanlar onların mütaliəsinə bacarıqla rəhbərlik edir, kitabı qəsəbə sakinlərinə, ətrafda yaşayanlara sevdirə bilirdilər.

Zaman keçdikcə formalar, strukturlar da dəyişərək müasirləşir və yeniləşirlər. Ötən əsrin sonlarına kimi metodik mərkəz rolunu bacarıqla yerinə yetirən Xıllı qəsəbə kitabxanası hazırda rayon mərkəzləşdirilmiş kitabxana sisteminin 1 saylı filialıdır. İnformasiya-kommunikasiya texnologiyalarının həyatımıza sürətlə daxil olduğu bir vaxtda mütaliəyə həvəs azalsa da, onu qiymətləndirənlər də vardır. Bu gün kitabxanalara, o cümlədən Xıllı qəsəbə kitabxanasına üz tutanlar da belə insanlardır. Amma kitabxana işçiləri bununla razılaşmırlar. Sakinləri mütaliəyə daha geniş şəkildə cəlb etməyə çalışırlar. Son illər filialda oxucuların sayının durmadan artması, kitab dövriyyəsinin genişlənməsi də bununla bağlıdır.

Tükəzban HƏSƏNOVA

Sabahımız haqqında düşünərkən

ÖZÜMÜZDƏN ÖZÜMÜZƏ MÜRACİƏT!

Vaxtilə dördüncü sinfin "Ana dili" dərsliyində kiçik, lakin ibrətamiz bir hekayə var idi, unudulmaz xalq yazıçısı Ənvər Məmmədxanlının "Yasəmən ağacı" hekayəsi. Hekayə bir uşağın dilindən yazılmışdı. Uşaq deyir ki, müəllimimiz Aslan müəllim məktəbin bağçasında bir yasəmən ağacı əkmişdi. Ona sevə-sevə qulluq edirdi. Bir-iki ildən sonra ağac böyüdü. Bir gün dərsdə sinif yoldaşım qulağıma pıçıldadı ki, müəllimin ağacında bir quş yuva qurub. Zəng vurulanda ikimiz də həmin ağacın yanına qaçdıq. Doğrudan da ağacın yuxarı budaqlarının arasında bir yuva var idi. Mən maraqdan özümü saxlaya bilmədim, cəld ağaca dırmandım. Ağac çox cavan olduğu üçün mənim ağırlığıma tab gətirə bilmədi, şaqqıltı ilə sındı, quş yuvası da uçulub yerə töküldü. Yaxınlıqda bir quş həyəcanla çırpınır, canfəşanlıq edirdi... Səhəri gün Aslan müəllim məni çağırdı və bağçaya apardı. Ağac sınan yerdən kəsilmiş, kötüyü qalmışdı. Aslan müəllim bir qədər susdu və sonra dilləndi: "Biz dünyaya ona görə gəlmişik ki, onu daha da gözəlləşdirək. Ona görə gəlməmişik ki, onun gözəlliklərini məhv edək." Bir il keçdi, yenə bahar gəldi. Kəsilmiş ağac yenidən pöhrələndi. İndi mən özüm də həmin pöhrəyə qulluq edirəm, onu qoruyub əzizləyirəm...

Əziz həmyerlilərimiz, neçə vaxtdır rayonumuzda genişmiqyaslı tikinti, abadlıq və yaşıllaşdırma işləri gedir. Hər tərəfdə təmizlik, səliqə-sahman yaradılır. Bu səliqə-sahman, bu gözəlliklər bizim üçün, bizim gələcək nəsillərimiz üçündür. Bu dünyada elə xalqlar, millətlər var ki, hər bir insan azı ildə bir ağac əkir, suvarır, becərir. Çox təəssüf ki, biz bunu yalnız çəpərimizin içində edirik, elə bilirik ki, çəpərin çölü bizim deyil, qapıdan çıxan kimi həyətimiz qurtarır, vəssalam. Amma unuduruq ki, həyətimiz qurtaran yerdən həyatımız başlayır, küçə də, park da, xiyaban da bizimdir, çöl-çəmən də bizə məxsusdur. Yaşıllıq işləri həmişə olub, amma uzun illər bizlərdən kimlərsə öz mal-qarasını yaşıllıqlarda otarıb, xəlvəti bayıra ötürüb, harada nələr etdiyinin heç fərqinə də varmayıb. Dünyada elə ölkələr var ki, orada adamlar gəzdikləri küçələrə, parklara, bağlara, xiyabanlara adi bir siqaret kötüyü, kibrit çöpü belə atmırlar, nəinki tum qabığı ola. Təəssüf ki, biz tərtəmiz, təzə bir parkda qoyulmuş skamyanın həndəvərini zibilxanaya döndəririk: dondurma kağızı, tum qabığı, boş butulkalar və daha nələr, nələr... Halbuki beş addımlığımızda zibil qutuları var, beş addım atmağa tənbəllik edirik. Əslində bunun özü də bir idmandır, hərəkətdir, hərəkət isə yaşamaqdan xəbər verir. Bunu hətta özümüz etmirik, nəinki uşaqlarımıza, nəvələrimizə ictimai yerlərdə təmizliyə riayət etməyi öyrədirik.

Keçdiyimiz yollarda, küçələrdə nə qədər yeni ağac tingləri əkilib, yeni yaşıllıq zonaları, zolaqları salınıb. Hələ də elə düşünürük ki, hökumət əkib, hökumət də suvarmalıdır. İnanın ki, bəyənmədiyimiz bir çox millətlər bunun əksini fikirləşirlər, əllərinə vedrə alıb ağac suvarmaqdan utanmırlar.

İsraildən gələn bir həmvətənimiz bir dəfə maraqlı bir söhbət etdi. Dedi ki, Təl-Əvivdə maşınla gəzirdik. Yoldaşlarımızdan biri tum çırtlayır, qabıqlarını ovcuna yığır, sonra pəncərədən çölə atırdı. Bir də gördük arxadan gələn bir maşın bizə işarə edir ki, saxlayaq. Amma polis maşını deyildi, tanışa da oxşamırdı. Dayandıq. Sürücü əcnəbi olduğumuzu dərhal bilmişdi və bizə mədəni şəkildə üz tutdu: "Bizim şəhərimizi niyə zibilləyirsiniz?" Qaldıq baxa-baxa və ondan üzr istədik...

Bir də görürsən ki, nadan bir yeniyetmə yenicə rənglənmiş dayanacağa ya söyüş dolu sözlər yazır, ya hansı yaxın qohumununsa şəklini çəkir, ya hansı parkdasa təzə bir skamyanı bıçaqla kəsib doğrayır. Əcəba, o yeniyetmə görəsən düşmən balası deyil ki?! Əlbəttə ki, yox, bizim öz balamızdır. Bəs onda görəsən o skamya düşmən malı deyil ki?! Yox, o da bizim maddi sərvətimizdir, öz malımızdır. Bəs görəsən o yeniyetmədə çatışmayan nədir? Çatışmayan bizim ona verə bilmədiklərimiz və ya vermədiklərimizdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev dəfələrlə hamıya müraciət edib, bildirib ki, ağac kəsmək olmaz, bu, qadağandır, cinayətdir. Ağıllı insan bu sözlərdən xəcalət çəkməlidir: muğamlar kimi bəşəri fəlsəfi musiqisi, Lütfi Zadə kimi dünya şöhrətli dahisi olan bir xalqın övladı niyə özünü bu qədər aşağılamalıdır?!

Bu gün Neftçala özünün tarixi inkişaf dövrünü yaşayır, gənclik və gözəllik şəhərinə çevrilir. Bu gözəllikləri qorumaq, saxlamaq, inkişaf etdirmək özümüzdən asılıdır. Gəlin özümüz özümüzə, sabahımıza, yaratdıqlarımıza hörmət edək, onları qiymətləndirək, gözəlliyi göz üstündə saxlayaq.



Zabil PƏRVİZ,
"Yeni dünya" mükafatı laureatı

TOY VƏ YAS MƏRASİMLƏRİMİZ

Bu dünya qurulandan, insan adlı varlıq yer üzərində xəlq olandan sevinc də bizim olub, kədər də. Bəzən gözlərimizi fərəh güldürüb, bəzən də içimizi acı qüssələr ağladıb. Fəlsəfə açmaq istəmirəm, lakin məni bir şey narahat edir: son zamanlar biz sevincimizlə kədərimizi, deyəsən, ayırd edə bilmirik. Hətta iş o yerə gəlib çatıb ki, hərdən toylarımızı yasa çevirib, yaslarımızı da toya bənzədirik. Mən bu məqalədə də toylarımızın bu günkü vəziyyətindən və yaslarımızın indiki halından söhbət açmaq fikrindəyəm. Öncə toylardan danışaq.

Elə bu yerdə bir sualla sizlərə üz tuturam: bu günkü toylarımıza toy demək olarmı? Sizə ünvanladığım bu suala ilk olaraq özüm cavab vermək istəyirəm: bu günkü toylarımız əslində toyu yox, biznesi xatırladır. Dəbdəbəli şadlıq sarayları, təmtəraqlı məclislər, özümüzü özgələrə göstərmək həvəsi, harınlıq azarı, mənfəətə hərislik, deyəsən, bizi əməlli-başlı çaşdırıb. Demək olar ki, artıq biz toya gəlir, qazanc mənbəyi kimi baxır, bircə toy dəvətnamələrinə lotereya biletləri demirik. Pul qoyub, pul götürən kim, pul tapıb, pul itirən kim. Bəzən övladlarımızın xoşbəxtliyi, onların gələcək ailə münasibətləri haqqında fikirləşməkdən daha çox bu toydan nə qədər mənfəət əldə edəcəyimiz barəsində düşünüb-daşınır, hey ölçüb-biçirik. Toy böyük bir mədəniyyət, həm də millimənəvi dəyərdir. Təəssüflər olsun ki, indiki toylarımızda maddiyyat mənəviyyatı, belə demək mümkünsə, üstələyib. Bu isə ən azı yaxşı hal deyil. Bir şeyi də xatırlatmaq yerinə düşər, bu da toylarımızdakı israfçılıqdır. Niyə bu qədər israfçı olmuşuq? Növbənöv, çeşidbəçeşid təamlar hətta masalar üçün belə ağır yükdür. Yəqin, mənimlə şərik olarsınız ki, həddən çox qida qəbul etmək həm tibbi, həm də dini, mənəvi baxımdan yolverilməzdir. Məşhur "Xəmsə"də deyildiyi kimi:

Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da.

Fərqinə varmadan isə hey yeyir, sonunu fikirləşmədən hey içirik. Mən demirəm ki, biz niyə doymuruq? Mən deyirəm ki, biz niyə doymağı bacarmırıq? Axı biz hər şeyi bacarırıq.

Bir az da toylarda oxunan mahnılar, oynanılan rəqslər haqqında. Belə başlamaq istərdim: həmişə çalıblar, oynamışıq. Əhsən olsun bizlərə ki, yenə də çalırlar, oynayırıq. Özü də heç nəyə və heç kimə məhəl qoymadan. Bayağı, şit-şit mahnılardır (əgər onlara mahnı demək olarsa) toylarımızın "bəzəyi". Bu mahnıların mətni heç bir mənası olmayan söz yığını, musiqisi isə olduqca bəsit və yeknəsəq görünən səs-küydən başqa bir şey deyil. Əslimizlə, kökümüzlə sıx bağlı olan milli rəqslərimiz isə unudulur, bir-birindən gözəl və könül oxşayan mahnılarımız yaddan çıxır. Bəzən elə mahnı sifariş verilir ki, yalnız məəttəl qalmalı olursan. Xüsusən də əcnəbi musiqilərin toylarımıza daxil olması və bu qədər geniş hal alması yaxşı xüsusiyyət deyil. Zövqləri korlayan zövqsüz musiqilərin belə bir sürətlə axını toylarımızın bu günkü durumunu daha da ağırlaşdırır, çox zaman gələn qonaqları, yaxud toy iştirakçılarını da narahat edir. Toyda sevinmək əvəzinə, ya darıxır, ya da əsəbiləşirik. Səsucaldıcılardan yüksək dərəcədə istifadə isə qulaqbatırıcı olur, beyinlər yorulur, əsəblər daralır. Amma deməyin ki, oynayanları unutdum. Heç onları yaddan çıxarmaq olar?! Qabaqlar qol qaldırıb oynayardılar. Qol qaldırıb oynamağı bacarmayanlar indi "leş bir yana, baş bir yana" deyib əl-qol atır, ortalıqda meydan sulayırlar. Çox vaxt kimin kimlə oynadığı da məlum olmur. O məlum olur ki, hamı oynayır və necə gəldi. Əvvəllər isə toylarda yaxşı oynayanları adla çağırardılar. Sevindirici haldır ki, öz yerini bilən, özünə dəyər-qiymət verən şəxslərimiz də az deyil, hərdən toylarda ədəb-ərkan sahibi olan adamları görəndə daxilən qürur duymaya bilmirsən. Arzulayırsan ki, təki belələrindən daha çox olaydı. Amma neyləyəsən ki, belələri çox azdır.

Bu gün dinləmə mədəniyyətimiz aşağı səviyyədədir. Hamı danışır, qulaq asanı isə görmək olmur. Mənə elə gəlir ki, toylarımızı öz əvvəlki yüksək əxlaqi, milli-mənəvi dəyərinə, öz görkəminə qaytarmaq lazımdır. Müasirlik adı ilə bu gün toylarımızı bərbad hala qoyan yad ünsürləri yox etməyin artıq vaxtıdır.

Yaslarımızın bu günkü vəziyyəti isə tamam başqa cürdür. Buradakı dəm-dəsgah, heç kəsə gərək olmayan israfçılıq az qala yaslarımızı toylara bənzədir. Bir şeyi unuduruq ki, hüzür yerinə gələn adamlar, əslində, həmin ailənin dərdinə şərik çıxmağı özünə mənəvi borc bilən dəyərli, nəcib insanlardır. Bəzi hallarda çoxlarımız hüzür sahibi olaraq məclisə gələnləri ehsanlarla doyuzdurmağı planlaşdırırıq. Borc alıb, xərc çəkib bir-birinin sırasınca ocaq üstə qazanları qaynadırıq, cürbəcur yeməklər bişirtdiririk, bu azmış kimi, çadırlarda masaların üstünə mer-meyvə, noğul-nabat, hətta şəkərbura da düzürük. Yadımızdan çıxarmayaq ki, dünyasını dəyişən insanın ruhuna yetişən məclisdə oxunan dualar, çəkilən salavatlar, verilən fatihələr olur. Müdrik bir kəlamın səslənməsi də bir ehsandır. Bu gün bir çoxları ehsanı təkcə yeyib-içmək kimi başa düşür, yas yerinə yalnız qarın doydurmaq üçün gedir. Elə bil hər şeyi çətinə salmağı öyrənmişik. Onsuz da ölü yiyəsinin dərdi, əzabı heç yerə sığmır, yas günlərində min bir əziyyətlə xərc çəkib ehsan verməsinə nə ehtiyac?!

Ta əvvəllərdən bir stəkan çay, bir də qəndlə keçiriblər belə məclisləri. İndi daha danışılası deyil. Az-çox pulu-parası olanlar isə özlərini başqalarına göstərmək üçün yaxşı vasitə tapıblar. Buna lovğalıq deyək, yoxsa ucuz şan-şöhrət?! Bəziləri qəbir üstündə təmtəraqlı abidə qurmaqdan da çəkinmir, bununla özünü digərlərindən yüksəkdə tutur. Üstünlük budurmu görəsən? Əslində, insanın üstünlüyü nədən ibarət olmalıdır? Bu barədə fikirləşmişikmi? Özümüzü kimə göstəririk? Hər birimiz böyük olan Allahın bəndəsiyik və bəndə olan hər kəs Allahın buyruğundan çıxmamalıdır. Pulunu xərcləməyə yer tapmayanların isə hər gün qarşısından nə qədər kasıb, yoxsul insanlar keçir. Belə anlarda onlar bütün bunlara göz yumur, kömək umanların ümid yerini azdırırlar. Əgər, doğrudan da özünü göstərmək istəyirsənsə burada göstər, əziz dost. El-obanın işinə yara. Bir kimsənin əlindən tut. Deyim sənə afərin.

Maddi durumu nəzərə alsaq, görərik ki, bir çoxlarının vəziyyəti heç də ürəkaçan deyil. Lakin "qonşudan qalma dala" deyib, hərəmiz öz bildiyimizi edirik. Nə varlımız varlı kimi görünür, nə də kasıbımız kasıb kimi. Çoxları belə hesab edir ki, bu axardan kənarda olsam qınaq hədəfinə çevrilərəm. Bəziləri isə düşünür ki, dünyasını dəyişən əzizi guya hörmətdən düşər. Bir şeyi deyən yoxdur: bunu kim yazıb, bunu kim deyib? Bəlkə, bunlar da yazılmamış qanunlardandır?! Hərdən çoxumuz fikirləşir ki, mərhumun qırxınadək qəbir üstü, yəni baş daşı, üzərində şəkil, çarbənd və sair hazır vəziyyətdə olmalıdır. Pulu olan-olmayan iki ayağını bir başmağa dirəyib qırx mərasiminə qədər hər şeyi hazır vəziyyətə gətirir, sonra isə illərlə o borc-xərcin altından çıxa bilmir. Kim deyib ki, qəbir üstü mərhumun qırxınadək mütləq hazır olmalıdır?! Beton töküb həsar çəkirik, bir daş yondururuq ki, gəl görəsən. Yəqin, deyilənlərlə siz də şəriksiniz. Ən azından ona görə ki, bunlara şahidsiniz. İstərdim ki, "toyun toy yeri var, yasın yas yeri" deyimi heç vaxt unudulmasın. Nə qədər ki mənəviyyatımızı kölgədə qoyacağıq, nə qədər ki hər şeydə, hər yerdə təkcə maddiyyatı önə çəkəcəyik, nə qədər ki özümüzdən uzaqlaşıb özgələrə oxşamağa çalışacağıq, o vaxta qədər də bir-birimizə qarşı yad, ögey olacağıq. Xeyirxahlıq, doğmalıq, təmizlik kimi ali nemətləri unutmayaq, kökümüzə, soyumuza həmişə bağlı olaq. Həmişə özümüz olmağı bacaraq. Ulu mövlanə Cəlaləddin Rumi demiş, göründüyümüz kimi olub, olduğumuz kimi görünək.

Zaur ƏRMUĞAN,
şair-publisist

Rayonumuzun qonaqları

ALEKSANDR KANŞİN: BU YERLƏRƏ VURULDUM

Hər gün rayonumuza neçə-neçə qonaq gəlib-gedir. Rəsmisi də olur, qeyri-rəsmisi də. Hərəsi də bir ünvanı, təşkilatı təmsil edir özündə. Daha onları qarşılayanda əvvəlki kimi narahat olmuruq, həyəcan keçirmirik, doğma Neftçalanı, onun görməli, baxmalı yerlərini böyük sevinclə, fərəhlə təqdim edirik əziz qonaqlara.

Bu dəfəki qonaq isə daha uzaq ünvandan — Moskvadan gəlmişdi rayonumuza. Orada Ehtiyatda və İstefada olan Zabitlərin Beynəlxalq Məsləhət Komitəsinə rəhbərlik edir.



Aleksandr Kanşnin başçılıq etdiyi nümayəndə heyəti əvvəlcə respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında olmuşdu, təşkilatın rəyasət heyətinin üzvləri və aparat əməkdaşları ilə görüşüb söhbət etmişdi. Ölkəmizə səfərindən məmnun qaldığını bildirən komitə sədri Azərbaycanın qonaqpərvər ölkə olduğunu, bu diyarın gündən-günə gözəlləşdiyini, inkişaf etdiyini heyranlıqla gətirmişdi dilə. Rəhbərlik etdiyi komitənin tarixi və fəaliyyəti barədə geniş məlumat vermişdi azərbaycanlı həmkarlarına. Aydın olmuşdu ki, dörd il bundan qabaq yaranan bu qurum getdikcə genişlənməkdə, şaxələnməkdədir. Hazırda komitənin 30 ölkədən üzvlərinin olması bunu bir daha əyani şəkildə təsdiqləyir. Qurumun tərkibində Beynəlxalq Hərbi Fəlsəfə Birliyinin yaradılmasından məqsəd baş vermiş tarixi müharibələri təhlil etmək, müzakirələr aparmaq, nəticələri ümumiləşdirməkdir. Komitənin "Müharibəsiz və hərbi münaqişəsiz dünya" adlı sənədli filmlərin və televiziya proqramlarının festivalını keçirməsi də məhz bu istəkdən doğub. Bakının sülhə, əmin-amanlığa xidmət edən mühüm beynəlxalq tədbirlərin, film festivallarının keçirmə təcrübəsini nəzərə alan komitə yekun tədbirinin respublikamızın paytaxtında təşkil olunmasına qərar verib.

Belə xoş qarşılanmadan, ölkəmizdəki ab-havadan, gündən-günə gözəlləşən diyarımızdan məmnun qalan qonaq bu diyarda daha bir ünvana — Kürlə Xəzərin qovşağında yerləşən Neftçalaya da üz tutmuşdu. Nə idi onu bura çəkib gətirən duyğular, hisslər? Biz bunu Bankə qəsəbəsindəki xəstəxananın qarşısında bildik. Sən demə indi beynəlxalq əhəmiyyətli böyük bir təşkilata rəhbərlik edən Aleksandr Kanşin Bankədə, buradakı xəstəxanada göz açıbmış dünyaya. Yəqin onu bu yerlərə çəkib gətirən də bu hisslər, duyğular idi.

Çox keçmədi, rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin müşayiəti ilə Aleksandr Kanşin və onun rəhbərlik etdiyi qrup da xəstəxanaya gəldilər. Çox səmimi qarşılanma oldu. Rayon icra hakimiyyəti başçısının müavini Gültəkin xanım Sadıqova, başçı yanında fəaliyyət göstərən şuranın üzvü Rəşid Manafov, başçı aparatının şöbə müdiri Anar Cəfərov, qəsəbə inzibati ərazi nümayəndəsi Vaqif Cəlilov, xəstəxananın baş həkimi Taliyə Mustafayeva, xəstəxananın adını daşıdığı şəhid Rövşən Ağamalıyevin atası Baloğlan Ağamalıyev və digərləri əziz, hörmətli qonağa xoşgəldin deyənlərin sırasında idilər.

Deyirlər doğulduğun, dünyaya göz açdığın yer heç vaxt unudulmur, həmişə əziz olur insan üçün. Xəstəxanadakı tanışlıq zamanı biz bunu bir daha duyduq, hiss etdik. Aleksandr Kanşinin dünyaya göz açarkən yatdığı balaca çarpayıya necə heyranlıqla baxması, kövrəlməsi bu gün də gözlərimizin önündədir. Həmin dəqiqələrdə sanki körpəliyini yaşayırdı o. Balaca, köhnəlmiş çarpayı ona təqdim olunanda elə bil dünyanın ən qiymətli hədiyyəsini qəbul etdi Aleksandr Kanşin.

Bu kövrək anlardan, dəqiqələrdən sonra söhbət xəstəxananın həyətindəki talvarın altında, çay süfrəsi ətrafında davam etdi. Ətirli samovar çayı çox xoşlarına gəldi qonaqların. Dönə-dönə içdilər bu ətirli çaydan. Öz axarı ilə davam edən söhbət də şirinləşirdi. Rayon rəhbərinin sadəliyi, onlara olan diqqəti və mehribanlığı da az rol oynamırdı bu səmimiyyətdə. Fürsətdən istifadə edərək biz də əziz qonağa — Aleksandr Kanşinə yaxınlaşdıq. Ondan Neftçala, neftçalalılar, doğulduğu yer haqqında təəssüratını bildirməyi xahiş etdik. Məmnunluqla razılaşdı və bizə bu sözləri dedi:

— Pasportumdakı "Severnıy-vostoçnıy Bank" sözləri həmişə düşündürürdü məni. Doğulduğum yerləri görmək istəyirdim. İllər keçdi, təhsil aldım, müxtəlif vəzifələr daşıdım. Amma bu hiss, bu duyğu heç vaxt yadlaşmadı, yadımdan çıxmadı. Nəhayət, 58 il ötəndən sonra arzuma qovuşdum, buralara gəlmək, sizinlə görüşmək qismət oldu mənə. Lazım olduğundan da artıq hörmət, ehtiram gördüm burada. İnsanlar çox istiqanlı, qonaqpərvər və mehribandırlar. Çay süfrəsi ətrafındakı səmimi söhbətimiz əbədilik qalacaq yaddaşımda. Rayonumuzdakı quruculuq işləri heyran etdi məni. Rayon rəhbəri Bankədə görüləcək işlərdən də danışdı bizə. Bu təkcə məni yox, elə hamımızı sevindirdi. Özü də ürəkdən. Buradakı birliyə, həmrəyliyə vurulduq. Komitəmizin ən ali mükafatını — "Zabit həmrəyliyi medalı"nı rayonunuzun rəhbərinə, çox hörmətli İsmayıl müəllimə məhz rayonda yaratdığı bu birliyə, həmrəyliyə görə təqdim etdik.

Sözünə davam edən Aleksandr Kanşin dedi:

— Bu gündən mən də özümü neftçalalı, bankəli hesab edirəm. Vizit kartımı çoxlarına vermişəm. Mən də sizin yolunuzu gözləyirəm. Müəyyən bir çətinliyiniz, probleminiz olsa kömək göstərməyə həmişə hazıram. Bundan sonra yəqin məni də buralarda tez-tez görəcəksiniz. Ürəyim bu yerlər üçün, halal duzlarını, çörəklərini daddığım bu sadə, mehriban insanlar üçün həmişə darıxacaq.

Deyirlər yetişərək şirinləşən meyvə necədirsə, yetişən, kamilləşən insan da elədir. Beləliklə ilə ünsiyyətdən heç vaxt doymaq olmur. Ehtiyatda və İstefada olan Zabitlərin Beynəlxalq Məsləhət Komitəsinin rəhbəri, Rusiya Federasiyası İctimai Palatasının sədri, Rusiya Federasiyası Müdafiə Nazirliyi yanında İctimai Şuranın sədr müavini və digər yüksək vəzifələri yerinə yetirən, fəlsəfə doktoru elmi dərəcəsinə yüksələn, keçmiş ittifaqın, Rusiya Federasiyasının, bir sıra beynəlxalq təşkilatların orden və medallarına, yüksək mükafatlarına layiq görülən Aleksandr Kanşindəki sadəlik, səmimilik bizləri də heyran etmişdi. Yəqin burada görüşdüyü, ünsiyyətdə olduğu insanlar da heç vaxt unutmayacaqlar onu, 50 illik yubileyinə həsr olunmuş albomuna, buradakı xatirə şəkillərinə baxanda əzizləri, doğmaları kimi xatırlayacaqlar Aleksandr Kanşini.

Habil ƏSƏDOV

Hərbi vətənpərvərlik tərbiyəsi

ESTAFET

Dünyasını çoxdan dəyişmiş Gülbala Süleymanovu yaxşı tanıyırdıq. 1973-cü ildə Neftçala müstəqil rayon kimi yenidən təşkil olunanda ən məsul işlərdən biri — rayon suvarma sistemləri idarəsinin rəisi vəzifəsi ona etibar edilmişdi. Daha sonra idarədə müxtəlif sahələrdə çalışan Gülbala müəllim ona tapşırılan, həvalə edilən ictimai işlərin, vəzifələrin öhdəsindən də həmişə bacarıqla, layiqincə gələrdi. Gördüyü işlərlə, iştirakçısı olduğu tədbirlərlə bağlı qəzetimizdə müntəzəm çıxış etməsi onu bizə də doğmalaşdırmışdı. Həyatdan doğan mənalı, dəyərli söhbətləri ürəyimizdən olardı. Onu maraqla dinləyərdik, ağıllı fikirlərindən faydalanardıq. Müdrik ağsaqqal, elin-obanın xeyrinə, şərinə yarayan bir insan kimi qalıb yaddaşımızda, xatirəmizdə Gülbala Süleymanov.

Soyadını daşıdığı Telman da onun övladıdır. O da atasından əxz elədiyi bir çox xüsusiyyətləri yaşadır özündə. İşinə, vəzifəsinə qarşı həmişə məsuliyyətlidir, kəndin, elin-obanın xeyir-şərində daim yaxından iştirak edir, insanlar arasında hörməti var. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini bitirdikdən sonra taleyini birdəfəlik müəllimlik peşəsinə bağlamışdır. Başqa işə göndərilməsi ilə əlaqədar qısa fasiləni — rayon icra hakimiyyəti başçısının Yuxarı Qaramanlı kənd inzibati ərazi üzrə nümayəndəsi vəzifəsində çalışmasını nəzərə almasaq, 25 ildir ki, II Qaralı kənd tam orta məktəbinə rəhbərlik edir.

Ötən illər ərzində az yeniliklər olmayıb bu təhsil ocağında. II Qaralı kənd məktəbinə direktor təyin edilməsindən beş il keçməmiş — 1987-ci ildə bu təhsil ocağının ümumi orta məktəbdən tam orta məktəbə çevrilməsi təkcə müəllim və şagirdləri deyil, elə kənd sakinlərini, valideynləri də ürəkdən sevindirmişdi. Doqquzuncu sinfi bitirdikdən sonra uşaqların təhsillərini elə öz doğma məktəblərində davam etdirmələri həqiqətən sevindirici idi. Halbuki bunun üçün şagirdlər illərlə böyük əziyyət çəkirdilər, qış aylarında digər məktəblərə getməyə məcbur olurdular. 2012-ci ildə isə kənddə daha böyük sevinc yaşandı. Burada yeni müasir məktəbin istifadəyə verilməsi hamının ürəyindən oldu. Bu doğrudan da böyük sevinc idi, dövlətin kənd sakinlərinə, gənc nəslə layiqli hədiyyəsi idi. İndi şagirdlər hər cür şəraiti olan bu yeni məktəbdə daha həvəslə oxuyur, elmlərin sirlərinə daha dərindən yiyələnirlər. Şübhəsiz, qazanılan bu uğurlarda məktəbin rəhbərliyinin də az zəhməti olmamışdır.

Babasının adını daşıyan Gülbala Süleymanov bu ailənin övladıdır. 23 il bundan qabaq göz açıb dünyaya. Ağlı kəsəndən babası Gülbala kişinin müharibə "nağıllarına" qulaq asıb, bu "nağılların" təsiri altında böyüyüb. Böyük Vətən müharibəsinin iştirakçısı olan Gülbala kişi Leninqrad mühasirəsinin ağrılarını yaşamışdı, odlu-alovlu cəbhələrdən keçmişdi, çoxlu orden və medallara layiq görülmüşdü. Doğma elinə əlil kimi qayıtsa da, işdən-gücdən ayrılmamışdı, həmişə öndə, irəlidə gedənlərin sırasında olmuşdu. Baba Gülbala qəhrəmanlıqlarla dolu öz döyüş yollarından söhbət açdıqca özü də bilmədən nəvə Gülbalanın qəlbində hərbçi sənətinə maraq oyatmışdı. İllər keçdikcə bu maraq böyümüşdü, bütün ruhuna, qəlbinə hakim kəsilmişdi nəvə Gülbalanın.

2009-cu ildə orta təhsilini başa vuranda tərəddüd etmədən sənədlərini Heydər Əliyev adına Ali Hərbi Təyyarəçilik Məktəbinə verməsi də bununla bağlı idi. Qəbul imtahanları uğurla keçmişdi. Topladığı yüksək balla məktəbə qəbul olunmuşdu Gülbala. İlk gündən dərslərinə də böyük səylə, məsuliyyətlə yanaşmışdı, mühazirələri diqqətlə dinləmişdi, müəllimlərinin verdiyi tapşırıqları vaxtında yerinə yetirmişdi. Çəkdiyi zəhmət hədər getməmişdi. Birinci kursun sonunda kurs əlaçısı olduğundan onu məktəb komandanlığının və Müdafiə Nazirliyinin birgə razılığı əsasında qardaş Türkiyə Respublikasının İstanbul şəhərindəki Ali Hərbi Təyyarəçilik Məktəbinə göndərmişdilər.

Yüksək mütəxəssislər yetişdirən bu ali təhsil müəssisəsində Gülbala Süleymanov 4 il oxumuşdur. Özü də əla qiymətlərlə oxumuşdur, hərbi təyyarəçiliyin sirlərinə dərindən yiyələnmişdir. Məktəbi müvəffəqiyyətlə başa vurduqdan sonra o, yenidən ölkəmizə, Azərbaycan Müdafiə Nazirliyinin sərəncamına göndərilmişdir. İndi hava sərhədlərimizin keşiyində dayanan Gülbala bundan qürur duyduğunu, sevindiyini bildirir. Bu qartal baxışlı vətənpərvər gəncə baxanda, onunla söhbət edəndə adam özü də qürurlanır, duyğulanır. Hiss edirsən ki, qəlbi Vətən sevgisi ilə döyünən bir gənc dayanıb qarşında. Ermənilərin nankor hərəkətləri, igid əsgərlərimizin şəhid olması onu da hiddətləndirir. Amma ordumuzun qüdrətinə, əsgərlərimizin qeyrətinə də bələddir Gülbala. Keçirilən təlimləri, şahinlərimizin uçuşunu da böyük qürur hissilə izləyir. Əgər Ali Baş Komandan əmr versə, gənc təyyarəçi Gülbala Süleymanov da Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirənlərin sırasında olacaq. Babası kimi o da düşmənə aman verməyəcək. Döyüş estafetini, döyüş ənənələrini layiqincə davam etdirəcəkdir.

H.ƏSƏDOV

Ana dilimizin saflığını qoruyaq

"Dil də mədəniyyətdir". Hər birimizin tez-tez rast gəldiyi bu fikir öz dərin mənası və mahiyyəti ilə həmişə diqqət çəkir. Əsrlər boyu zamanın sərt sınaqlarından çıxan, öz qədim keçmişindən uzun bir yol götürüb bu günümüzə yetişən ana dilimiz indi özünün ən yüksək inkişaf mərhələsinə gəlib çatmışdır. Türk dilləri ailəsinin oğuz qrupuna daxil olan Azərbaycan dili semantikliyi və strukturu baxımından spesifik xüsusiyyətlərə malikdir. Olduqca rəvan, axıcı və melodik dil hesab olunan Azərbaycan dili nəinki türk, o cümlədən bütün dünya dilləri içərisində zənginliyi ilə fərqlənir.

Azərbaycan dili azərbaycanlıların — bu dildə danışanların doğma dilidir. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, bizim ölkəmizdə 8 milyondan, Cənubi Azərbaycanda 35 milyondan çox insan bu dil vasitəsilə ünsiyyət qurur. Ümumiyyətlə, hər bir dilin varlığı o dildə danışanların mənəvi dünyası — qəlbi və ruhu ilə sıx bağlıdır. Vaxtı ilə böyük fransız dilçisi F. de Sösür deyirdi ki, xalqın dili onun ruhu, xalqın ruhu onun dilidir. Hələ XII əsrdə dahi Nizami öz məşhur "Xəmsə"sində türk (Azərbaycan) dilinin incəliklərindən iftixarla danışmış, bu dil ilə nəfəs almışdır. Ulu Nəsimi, qəzəlin Allahı sayılan Füzuli, Azərbaycan dilini dövlət dili səviyyəsinə yüksəldən Şah Xətai ən gözəl əsərlərini bu dildə qələmə almışdır. XI əsrin söz və elm dahisi Xətib Təbrizinin Azərbaycan dili haqqındakı fikirləri bu gün də xatırlanmaqdadır. Maarifpərvər alim Abasqulu ağa Bakıxanov, Azərbaycan dilinin ilk elmi qrammatikasını yazan Mirzə Kazım bəy, ana dilimizdə ilk qəzet nəşr edən Həsən bəy Zərdabi, eləcə də Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və digər tərəqqipərvər şəxsiyyətlərimiz bu dilə mühüm önəm vermiş, onun ümumbəşəri dəyərləri haqqında bəhs etmişlər. Azərbaycan dilində ilk qəzəl nümunəsinin müəllifi İzzətdin Həsənoğlu, dərin məzmunlu lirik poetik nümunələr yaradan Molla Pənah Vaqif, Aşıq Ələsgər, bir çox digər söz-sənət adamları ana dilimizin ocağından od götürmüş, onun hərarəti ilə alovlanmış, sənət məşəlinə çevrilmişlər. Cəfər Cabbarlı, Səməd Vurğun kimi şair və dramaturqlarımız bu dildə yüksək bədii əsərlər yazmaqla bərabər, nə qədər də yeni-yeni sözlər yaratmış, dilimizin söz ehtiyatını zənginləşdirmişlər. Həmin sözlər bu gün də müasir dil səviyyəsində işlək halını almışdır. Süleyman Rəhimov, Mir Cəlal, Mirzə İbrahimov, İlyas Əfəndiyev kimi yazıçılarımız ana dilimizə məxsus olan dərin söz ehtiyatından istifadə edərək neçə-neçə əsərə imza atmış, Azərbaycan dilinin bədii gözəlliyini daha da təravətləndirmişlər. Bəxtiyar Vahabzadə, Xəlil Rza dilimizə şeirlər həsr etmiş, bu şeirlərdə dilin saflığından, onun qüdrətindən söhbət açmışlar. Oxunan bir çox mahnılarda, musiqi nümunələrində ana dilimizin şirinliyi duyulur, bu mahnılar, musiqi nümunələri axar su kimi ürəklərdən-ürəklərə süzülür.

Azərbaycan dilində danışan hər kəs, heç şübhəsiz, bu dildə düşünür, bu dildə duyur. Nitq hələ sonrakı mərhələdir. Öncə duyursan, düşünürsən, daha sonra isə danışırsan. Yəqin ki, "əvvəl düşün, sonra danış" el məsəli də buradan qaynaqlanmışdır. Hər birimiz çalışmalıyıq anamızın danışdığı dil olan doğma dilimizə yad təsirlər ziyan gətirməsin. Bu baxımdan mətbuat, radio və televiziya olduqca mühüm rol oynayır. Təəssüf ki, dövrümüzdə bir sıra qəzet və jurnallar, radio və televiziya proqramları dilimizin keşiyində möhkəm dayanmaq əvəzinə, onu daha da korlayır, bərbad vəziyyətə salırlar. Xüsusilə müstəqil qəzet və jurnalların xam yazarları, özəl radio və televiziya proqramlarının cavan aparıcıları dilimizin ən vacib qaydalarını belə gözləmirlər, məntiqsiz, bayağı nitqləri ilə dilin gözəlliyini korlayırlar. Bir çox hallarda Azərbaycan dilində doğru-dürüst yazmağı, danışmağı bacarmayan adamlar müxbirliyə götürülür, efirlərə buraxılır, bir çox ciddi verilişlər onların ixtiyarına verilir. Düşünürəm ki, müasir Azərbaycan ədəbi dilinin ümumi prinsiplərini, qrammatikanı dərindən bilmədən, yazılı və şifahi nitq mədəniyyətini mənimsəmədən hansısa bir qəzetdə, ya jurnalda çalışmaq, peşəkar radio və televiziya aparıcısı olmaq qeyri-mümkündür.

Əvvəllər belə məsələlərə daha ciddi diqqət yetirilirdi. Halbuki bu, hazırda daha vacibdir. Vaxtilə biz radio dalğalarında yayımlanan bir çox verilişləri dinləyicilərə çatdıran aparıcıları səslərindən tanıyırdıq. Bu səslər o qədər əziz, o qədər şirin, o qədər cəzbedici olurdu ki, proqramın sonuna kimi radioqəbuledicinin düyməsini burub başqa dalğaya ötürmürdük. Bu aparıcılar öz məzmunlu nitqləri, ecazkar səslərilə sanki bizi ovsunlayardılar. Və biz onların nitqində heç bir qüsura rast gəlmirdik. O dövrlərdə indiki kimi geniş imkanlar yox idi, bütün verilişlər qabaqcadan hazırlanmış mətnlərdən oxunurdu. Amma bu canlı verilişlər olduqca dəqiqliklə və məsuliyyətlə aparılırdı. İndi isə vəziyyət tamam başqadır. Bir çox aparıcılar elə danışıq tərzindən istifadə edirlər ki, nitq tamamilə gülünc vəziyyətə düşür. Bir çox hallarda adi xəbərin, informasiyanın özü belə qüsurlu şəkildə təqdim olunur. Məntiqi vurğu, söz sırası pozulur, bəzi sözlər lazım olmayan yerdə hədsiz yüksək tonla deyilir. Bəzən də hər hansı bir informasiya həddindən artıq sürətlə oxunduğuna görə fikir dinləyiciyə aydın çatmır. Bəzən də bir sıra sözlərdən lazım olmayan məqamda istifadə olunur. Belə olan surətdə dil rəvanlığını itirir, tamaşaçıda, dinləyicidə çaşqınlıq yaradır. Bütün bu mənfi elementlər bütövlükdə nitqi ağırlaşdırır.

Bir çox müxbirlərin yazılarında, radio və televiziya aparıcılarının verilişlərində, yeri gəldigəlmədi, tez-tez "belə deyək", "belə deyək də" kimi idiomlar, ara sözləri işlənir ki, bu da yazılı və şifahi dilin səlisliyini, gözəlliyini xeyli dərəcədə korlayır. Teleaparıcının veriliş zamanı "belə deyək də" deməsi əslində onun səsləndirdiyi fikri tamamlaya bilməməsi ilə bağlıdır. Teleaparıcı fikri tamaşaçıya çatdırmaqda çətinlik çəkdiyinə görə qurduğu cümləni bitirə bilmir, fasilə yaradır, bir növ sonrakı cümlənin axtarışına çıxır. Nəhayətdə, nitq tamamilə yararsız vəziyyətə düşür.

Yazılı və şifahi nitqdə tez-tez işlənən, təkrarlanan sözlərdən, ifadələrdən biri də "bir" sözüdür. Azərbaycan dilinin qrammatikasına uyğun olaraq "bir" sayından sonra cəm şəkilçisi işlənməz. Bir çox hallarda bu sözün ədat kimi işlənmə məqamı da səhvən səsləndirilir. "Ki" bağlayıcısı da qüsurlu variantlarda, məsələn, "-kı, -ki, -ku, -kü" şəkilçisi kimi işlədilir. ("Elə baxırdı kı", "elə oxuyurdu ku" və sair.)

Son vaxtlar efirlərdə müxtəlif ləhcələrdə danışmaq sanki dəb halını alıb. Bəzi aparıcıların dilində dialekt və şivələrdən geniş istifadə edilir. (Məsələn, "dünənnəri", "bəyaqları" və sair.) Bir çox fellərin sonunda qəti gələcək zaman şəkilçisinin "-cey, -ecey" kimi səslənməsi daha acınacaqlıdır. (Məsələn, "olacey", "gedecey" və sair.)

Teleaparıcıların öz çıxışlarında işlətdiyi söz və ifadələrin bir qismi isə rus dilinə mənsub olan dil faktlarıdır. (Məsələn, "uje", "prosto", "vabşe" (voobşe), "baqatı" (boqatıy) və sair.) Mən belə qüsurlu nitq detallarına aid daha çox nümunə göstərə bilərəm. Zənnimcə, bu, kifayət edər. Yəqin ki, hər birimiz efirlərdə belə halların tez-tez şahidi oluruq.

Məntiqli, səlist, aydın və təmiz danışıq tərzi nitqin başlıca xüsusiyyətidir. Hesab edirəm ki, hər bir aparıcı həm də öz nitqi ilə tanınır, yadda qalır. Məhz tamaşaçı ilə təması, ünsiyyəti yaradan nitq olur. Bunun üçün də teleaparıcılar dil və üslub məsələlərinə xüsusilə önəm verməli, ədəbi dilin normalarına (fonetik, leksik, qrammatik normalar) uyğun nitq yaratmalıdırlar.

Yəqin, heç kəs etiraz etməz ki, nitqi formalaşdıran əsas faktorlardan biri də zəngin mütaliə bacarığının olmasıdır. Etiraf etməliyik ki, bədii kitablar oxu sarıdan uzun vaxt aparsa da, fikrimizin inkişafında, dünyagörüşümüzün zənginləşməsində həlledici rol oynayır, nitq davranışlarını düzgün istiqamətdə formalaşdırır. Nitqi düzgün və anlaşıqlı olan aparıcının təqdim etdiyi veriliş həmişə sevilir. Canlı verilişlərin aparılması nə qədər çətin olsa da ən baxımlı verilişlər də elə canlı aparılan verilişlər olur. Bir şərtlə ki, aparıcı verilişi yaxşı apara, hər verilişə məsuliyyətlə hazırlaşa. Nə gəldi demək yox, necə vacibdirsə, o cür danışmaq lazımdır.

Düzdür, öz işinin ustası olan zəngin təcrübəli, dərin savadlı qəzet və jurnal yazarları, radio və televiziya aparıcıları az deyil. Amma burada söhbət dil qanunlarına məhəl qoymayan, bununla da oxucularda, dinləyicilərdə, tamaşaçılarda çaşqınlıq yaradan aparıcılardan gedir.

Ana dilimizin saflığı hər şeydən önəmlidir. Bizim hamımız məhz dilimizlə varıq. Dili qəlbən sevməli, ona məhəbbət hissi bəsləməliyik. Dilmizin təmizliyini var qüvvə ilə qorumalı, bunun uğrunda ciddi, barışmaz mübarizə aparmalıyıq. Dili sevmək dilə ruhən bağlanmaqdan başlayır. Dili qorumaq isə dilə olan məhəbbətdən doğur.

Z.ƏSGƏROV,
Tofiq İsmayılov adına Mirqurbanlı kənd tam orta məktəbinin dil-ədəbiyyat müəllimi

GÜNDOĞAR

№ 32-33-34 (6542) 17 oktyabr 2014-cü il

SON SƏHİFƏ

Veteran idmançılarımız

BACARIQLI MÜƏLLİM, GÖZƏL İNSAN

Hacı Muradxan Ağayev haqqında məqalə hazırlayacağımı biləndə başıma o qədər adam yığıldı ki, doğrusu, özümü bir qədər itirdim də. Muradxan müəllimin yetirmələrinin, onu sevənlərin çox olduğunu bilirdim, amma bu qədər təsəvvür etmirdim. İstər-istəməz bir fikir keçdi ürəyimdən: əgər belədirsə, son illərdə niyə onun haqqında bir kiçik məqalə belə dərc olunmayıb? Cavabını da elə özüm tapdım. Bu barədə söhbət açanda həmişə araya söz qatıb, yayınıb mövzudan Muradxan müəllim. Ona görə bu yazını da özündən xəbərsiz yazdım. Bildiklərimi, eşitdiklərimi qələmə aldım. Axı, bu gözəl insan çoxları kimi mənim də müəllimim olub. Təkcə müəllim kimi yox, bir insan kimi də sevmişik onu, ağıllı, dəyərli məsləhətlərindən faydalanmışıq həmişə.

Muradxan Böyükxan oğlu Ağayev düz 74 il bundan qabaq, 1940-cı ildə açıb dünyaya gözünü. Çox keçmədən müharibə başlanıb. İnsanları ölümə, fəlakətə aparan müharibə. Atası Böyükxan da elə Böyük Vətən müharibəsinin qanlı cəbhələrində həlak olub. Körpə ikən anasının ümidinə qalıb balaca Muradxan. Bir üzü qız, bir üzü gəlin olan Arəstə xanım bütün sevgisini, istəyini verib yeganə övladına. Sevə-sevə, əzizləyə-əzizləyə böyüdüb onu. Muradxan da itirməyib anasının zəhmətini, haqqını. Yaxşı oxuyub dərslərini. Yardımlının Şoud kəndindən başlanan təhsil illəri Neftçalada, 1 saylı tam orta məktəbində davam edib, burada tamamlanıb.

Dərslərini yaxşı oxumaqla yanaşı idmanı da çox sevib Muradxan. Xüsusilə də futbolu. Boş vaxtlarında hamı onu daim idman meydançasında görüb. Daim məşq edib, futbolun incəliklərinə yiyələnmək üçün saatlarla tər töküb, əziyyət çəkib. Onu rayonun yığma komandasına qəbul edəndə də futbola olan sonsuz sevgisini nəzərə alıblar. 1957-ci ildə orta təhsilini başa vurduqdan sonra məktəbdə laborant kimi çalışan Muradxan eyni zamanda burada bədən tərbiyəsindən dərs də deyib, ilk əmək fəaliyyətinə müəllim kimi başlayıb.

Arzuları onu Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutuna aparıb. Müəllimləri bu diribaş, gülərüz oğlanın biliyindən, bacarığından razı qalıblar. İdmanın 7 növündən ən yüksək — 33 bal toplayan Muradxan institutun əyani şöbəsinə qəbul olunub. Hərbi xidmət illərində də o, sevimli məşğuliyyətindən ayrılmayıb. Zaqafqaziya Hərbi Dairəsinin yığma futbol komandasının üzvü kimi bir çox məsul yarışlarda iştirak edib, uğur qazandırıb sevimli komandasına. Nümunəvi xidmətinə və gözəl oyununa görə adı dairənin "Şərəf kitabı"na yazılıb.

1962-ci ildən doğma Neftçalaya qayıdan Muradxan Ağayev əvvəlcə şəhərdəki internat, sonra isə şəhər 1 saylı tam orta məktəbində bədən tərbiyəsi müəllimi işləyib. Sənətinə olan sonsuz sevgisi, insanlarla ünsiyyət qurmaq bacarığı onu daim irəli aparıb. Muradxan müəllim rayon uşaq gənclər idman məktəbində metodist, direktor işləyəndə

də, respublika "Məhsul" Kənd Könüllü İdman Cəmiyyəti Neftçala filialına rəhbərlik edəndə də öz vəzifəsinə eyni məsuliyyətlə yanaşıb, yeni-yeni idmançıların yetişməsi üçün əlindən gələni əsirgəməyib. Onu respublika uşaq gənclər idman məktəbi direktorlar şurasına sədr seçəndə də məhz bu keyfiyyətlərini nəzərə alıblar. Təsadüfi deyil ki, Muradxan müəllimin rəhbərlik etdiyi kollektiv respublika məktəblilərinin 29, 30, 31, 32, 33, 34-cü spartakiadalarında fərqlənərək idmanın yüngül atletika, boks, futbol, avarçəkmə, sərbəst və klassik güləş, voleybol, basketbol, güllə atıcılığı yarışlarında ən yüksək mükafatlara layiq görülüblər. Ümumittifaq və respublika yarışlarında qazandıqları kuboklar və digər mükafatlar rayon uşaq gənclər idman məktəbində qiymətli yadigarlar kimi bu gün də diqqətlə qorunub saxlanılır. Rəhbərlik etdiyi məktəbin çoxlu sayda müəllimləri idmanın müxtəlif növləri üzrə respublika çempionu olublar, SSRİ idman ustası normalarını uğurla yerinə yetiriblər.

Çəkilən zəhmət heç vaxt itmir, həmişə qiymətini alır. Muradxan müəllimin zəhməti də nəticəsiz qalmayıb. Layiq görüldüyü Fəxri fərmanlar, diplomlar, təşəkkürlər, "Qabaqcıl maarif xadimi", "Fəxri bədən tərbiyəsi və idman işçisi" döş nişanları və digər mükafatlar onun halal haqqıdır. 1994-cü ildən "Azərbaycan Respublikasının fəxri bədən tərbiyəsi və idman işçisi" adını daşıyan Muradxan müəllim təqaüddə olmasına baxmayaraq bilik və bacarığını bu gün də gənclərdən əsirgəmir, onların hami tərbiyəçisidir. Dəyərli məsləhət və tövsiyələri cavanların həmişə köməyinə çatır, onları sabaha qanadlandırır.

Ömür-gün yoldaşı Solmaz xanımla birlikdə müqəddəs Həcc ziyarətində olan Muradxan müəllim valideynlik borcunun öhdəsindən də layiqincə gəlmişdir. Övladlarının hamısı ali təhsillidir. Vətənə layiq vətəndaşlar kimi yetişiblər. Öz davranışları, sadə və səmimilikləri ilə valideynlərinə daim başucalığı gətirirlər. Şübhəsiz, onların tərbiyəsində, yetişməsində Muradxan müəllimin şəxsi nümunəsi də az rol oynamayıb.

Yetirmələrinin sözlərini, fikirlərini dinlədikcə sanki Muradxan Ağayevi — sevimli müəllimimi yenidən tanıyırdım, yenidən kəşf edirdim onu. Vaxtı ilə UEFA-nın Avropa Çempionlar Liqasında oynamış keçmiş futbolçu Mehman İbrahimov öz müəllimi haqqında belə dedi:

— Muradxan müəllimi Neftçala idmanının siması, simvolu adlandırsaq, yəqin ki, səhv etmərik. Onun rayon idmanına verdiyi töhfələr əvəzsizdir. İstedadlı uşaqları özü seçər, inkişafları, irəli getmələri üçün heç nəyini əsirgəməzdi. O, sözün əsl mənasında futbolla, idmanla yaşayırdı.

Keçmiş futbolçular Toğrul Məmmədov, Aydın Aslanov, Natiq Əhmədov və neçə-neçə başqaları da öz sevimli müəllimləri haqqında ürək dolusu danışdılar. "O, yaxşı müəllim olmaqla yanaşı həm də gözəl məşqçi idi. Futbolçularla işləməyi bacarırdı" — dedi Toğrul. Aydın Aslanov Muradxan müəllimlə çalışdığı günləri ömrünün bahar fəsli adlandırdı. Elə Natiq də onun haqqında çox səmimi sözlər söylədi.

Gələn il Muradxan Ağayevin — bütün bilik və bacarığını rayon idmanının inkişafına sərf etmiş bu işıqlı insanın 75 yaşı tamam olur. Onun yubileyi rayonumuzun idman bayramına çevrilsə, bu, təkcə yetirmələrinin, idmansevərlərin deyil, elə hamının ürəyindən olar. Mənalı ömür yolu bu günkü gəncliyə, idmançılara nümunə göstərilsə bundan yalnız qazanarıq. Zəngin təcrübəsini öyrənmək, məsləhətlərindən faydalanmaq xeyir gətirər insana.

Müşfiq MƏMMƏDOV

Nəğmə dolu ürək vardı sinəsində

İnsan yaşayıb fəaliyyət göstərirsə, çalışırsa, müəyyən çətinlikləri, ağrı-acıları dəf edə bilirsə həyatda izi, sorağı qalmaya bilməz. Ağali Məhərrəməli oğlu Qənbərovun ömür yolu da beləcə keçib. Sevincli, fərəhli günlərilə yanaşı, çətinlikləri, narahatlıqları da az olmayıb. Amma heç vaxt ruhdan düşməyib. Onu yaşadan, irəli aparan, müəyyən uğurlara çatdıran da həyata olan bu böyük sevgisi, arzuları olub.

Ömür yolu dağlar diyarı Lerikdən başlayıb, burada dünyaya göz açıb Ağali. İstər Lerikdə, istərsə də Lənkəranda təhsil aldığı illərdə dərslərilə yanaşı ictimai işlərə, xüsusilə bədii özfəaliyyətə, oxumağa böyük maraq göstərib. Böyüyüb yaşa dolduqca bu maraq azalmayıb, əksinə, daha da artıb, bütün ruhuna, qəlbinə hakim kəsilib. Məktəbdə, rayonda elə bir tədbir olmayıb ki, Ağali orada çıxış etməsin. Şirin səsi, qəlbəyatan mahnıları ilə alqışlar qazanmasın. Bu gülərüz, mehriban oğlanı çox sevirdi dinləyicilər, daim xoş sözlər söyləyirdilər ünvanına. Özü də təkcə Lerikdə yox, qonşu rayonlarda da, qulluq etdiyi hərbi hissədə də. Ailə arxivindəki təşəkkür dolu məktubları oxuduqca oxumaq istəyirsən.

Nəğmə dolu, sevinc dolu illər beləcə keçib gedib. 1976-ci ildə tale onu Nefçalaya gətirib. Tatarməhlə kəndindəki kolxozda çalışıb. Mehribanlığı, işgüzarlığı ilə burada da özünə hörmət qazanıb Ağali. Kənd sakinləri xətrini çox istəyiblər onun. İşi başından aşsa da, sevimli peşəsindən, məşğuliyyətindən ayrıla bilməyib. Burada da kənd mədəniyyət evindəki musiqi kollektivinin ən fəal üzvlərindən birinə çevrilib. Sonra rayonda da tanıyıblar onu. Tədbirlərə, məclislərə dəvət ediblər. Gözəl, qəlbəyatan mahnıları ilə dinləyicilərini burada da şadlandırıb, sevindirib. Lerikdə, Lənkəranda, Neftçalada və digər rayonlarda çıxan qəzetlərdə çap olunan maraqlı yazılar bunu bir daha təsdiqləyir. Bu yazılar isə təsirsiz qalmayıb, yeni-yeni nəğmələrə qanadlandırıb onu. O illərdə müxtəlif təşkilatlardan aldığı Fəxri fərmanları, diplomları bu gün də qiymətli yadigarlar kimi qoruyub saxlayır. "Teatr baharı — 77" baxış müsabiqəsi isə Ağali üçün xüsusilə unudulmazdır. Müsabiqə qalibi kimi o, Azərbaycan Həmkarlar İttifaqı Şurasının diplomuna layiq görüləndə sevincinin həddi-hüdudu olmamışdı. Qanadı olsaydı uçardı o gün.



Ağali Qənbərovun yaddaşı olduqca zəngindir. Uzun illər birlikdə çalışdıqları, konsertlərdə, el şənliklərində birlikdə olduqları həmyerlilərimiz, tanınmış sənətkarlar aşıq Pənah Pənahovu, aşıq Ramiz Nemətovu, bərdəli aşıq Hüseyni, biləsuvarlı aşıq Əlifağanı, Lənkəran Dövlət Dram Teatrının kollektivini, Neftçalanın tanınmış musiqi ifaçılarını böyük məhəbbətlə xatırlayır. Deyir ömrümün ən gözəl, unudulmaz günləri onlarla keçib. El hörməti qazanmış bu sənət adamlarından çox şey öyrənib, çox şey görüb götürüb.

Əziz valideynlərinin — Atası Məhərrəməli kişinin, anası Həvva xanımın haqqında həyəcansız danışa bilmir Ağali. Dönə-dönə xatırlayır onları. Ona dərs deyən, "Vətən", "Ana" sözlərini öyrədən Oruc müəllimlə, İsmayıl müəllimlə, Mirzəli müəllimlə və neçə-neçə başqa müəllimləri ilə bağlı birbirindən şirin xatirələri bizi də kövrəldir. Onları daim qəlbində, ürəyində yaşadacağını, yad edəcəyini deyir Ağali.

Deyirlər həyat sınaq meydanıdır. O həmişə adamın üzünə gülmür. Xoş, sevincli günləri kimi çətin, ağır sınaqları da olur. Neçə il bundan qabaq Ağali də belə ağır sınaqla üz-üzə gəlib. Övladının qəfil ölümü sarsıdıb onu, daim çağlayan nəğməkar ürəyini, qəlbini susdurub. Hazırda Aşağı Surra kəndində yaşayan Ağali Qənbərovun başı təsərrüfat qayğılarına qarışıb. Dövlətin ailəyə verdiyi pay torpağını əkib becərməklə məşğuldur. Həyat yoldaşı Şərqiyyə xanımla 8 övlad böyüdüblər. Onlardan ikisini evləndiriblər. Cavanlar valideynlərinin köməyi, himayəsi sayəsində özlərinə yeni ailə qurublar. Gül üzlü, şirin-şəkər nəvələr gəlib dünyaya. Çox sevir onları Ağali. Çoxu balacadır. Ancaq İbrahim artıq böyüyüb, yaşa dolub. Yaxın vaxtlarda ordu sıralarına yola düşəcək, müstəqil Vətənimizin sərhədlərini qoruyacaq. Baba gündəngünə böyüyən, kişiləşən nəvəsinə qürurla baxır həmişə, düşmənə çəpərdir deyir ona. Öz müstəqil dövlətindən, bu dövləti qurub yaradan Ulu Öndər Heydər Əliyevdən böyük hörmətlə, ehtiramla söhbət açır Ağali. Prezident İlham Əliyevə dərin sevgisini bildirir. Deyir ölkəmizdəki əmin-amanlığa, firavanlığa görə bu işıqlı insanlara borcluyuq. Əkirik, biçirik, dolanırıq. Yaşlı insanlara verilən pensiya, uşaqlara ödənilən sosial yardımlar və digər müavinətlər aztəminatlı ailələrə göstərilən dövlət qayğısıdır.

Son illər rayonumuzda həyata keçirilən abadlıq, quruculuq işləri də az sevindirmir onu. Yaşadığı Neftçalanı, sakini olduğu Aşağı Surranı özünə doğma sanan Ağali görülən bu abadlıq, quruculuq işlərindən elə doğmalıqla da söhbət açır. Bu sadə kənd adamındakı səmimiyyət, görülənlərə, yaradılanlara verdiyi qiymət bizi də çox sevindirdi. Nə yaxşı ki, öz dövlətinin, elinin, obasının qədrini bilən belə sadə, səmimi insanlar var. Belələrilə fəxr etməyə dəyər.

Fərhad AĞAYEV

Dünyanın ən çox səyahət edən adamı

Dünya ölkələrinin yarısını gəzən, ümumilikdə 24 milyon kilometr məsafə qət edən, "Konkord" təyyarələrində 718 dəfə uçan ingilis Fred Fin "dünyanın ən çox səyahət edən adamı" titulunu qoruyub saxlayır.

İngiltərə qəzetlərinin məlumatına görə, 70 yaşlı Fin 196 ölkədən 139-na səfər edib. O, ilk dəfə səyahətə Hempşir hava limanından Nyu Yorka birbaşa uçuşla başlayıb.

F.Fin 52 ildir səyahət edir. Bu müddət ərzində o, 24 milyon kilometr yol qət edib ki, bu da Aya 31 dəfə gedib gəlməyə kifayət edərdi. Yorulmaz səyyah təyyarə və qatarla etdiyi hər səfər barədə ayrıca ətraflı qeydlər aparır və öz dəftərini onu mənzil başına çatdıran bütün sürücü və ya pilotlara imzalatdırır.

Fin həm də istismardan çıxarılan "Konkord" sərnişin təyyarələri ilə ən çox səfər edən insan kimi rekordunu qoruyub saxlayır. O, səyahətlərinə davam etməkdə qərarlıdır və Ayı da ziyarət etməyi planlaşdırır. Fin "Pan American" şirkəti ilə Aya səyahət etmək üçün müqavilə imzalayıb. Ancaq bu şirkətin iflasa uğraması və ləğv edilməsindən sonra hələ də bu səfər üçün fürsətin yaranmasını gözləyir.

6 fevral 2003-cü il tarixdə 163 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış Neftçala şəhərinin 5-ci məhəlləsində yerləşən İmam Hüseyn dini icması təsisçilərin 6 oktyabr 2014-cü il tarixli ümumi yığıncağının qərarı ilə (1 nömrəli protokol) ləğv edilmişdir.

Hüquq guşəsi

Sual: **Torpaq sahəsini icarəyə götürdükdən sonra icarəyə verən həmin torpağı başqasına satmışdır. Bu halda torpaq sahəsindən istifadəyə davam edə bilərəm?**

Cavab: Azərbaycan Respublikası Mülki Məcəlləsinin 700.1-ci maddəsinə görə icarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Bu müqaviləyə görə kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verir. İcarəçi icarəyə verənə müəyyənləşdirilmiş icarə haqqı ödəməyə borcludur. Həmin Məcəllənin 718-ci maddəsinə görə icarəyə götürülmüş torpaq satıldıqda və ya üçüncü şəxslərin hüquqları və ya iddiaları ilə yüklü edildikdə bu Məcəllənin 699-cu maddəsi tətbiq edilir. Adı çəkilən Məcəllənin 699.1-ci maddəsinə görə kirayəyə verilən əşya kirayəçiyə verildikdən sonra ona mülkiyyət hüququ kirayəyə verəndən hər hansı üçüncü şəxsə (əldə edənə) keçdikdə əldə edən mülkiyyəti əldə etdiyi andan kirayəyə verəni əvəz edərək kirayə hüquq münasibətlərindən irəli gələn bütün hüquq və vəzifələrə malik olur.

Göründüyü kimi, icarəyə götürdüyünüz torpaq sahəsi üçüncü şəxsə satılsa da, Siz həmin torpaq sahəsindən istifadəyə davam edə bilərsiniz.

***Sual*: Apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən kassasiya şikayəti vermişəm. Azərbaycan Respublikasının Ali Məhkəməsi işə hansı müddətdə baxacaqdır?**

Cavab: Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 409-cu maddəsinə görə apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin bu Məcəllənin 407-ci maddənin tələblərinə uyğunluğunu yoxlayır. Bu Məcəllənin 407-ci maddəsinin tələblərinə cavab verən kassasiya şikayəti ona əlavə olunmuş sənədlərlə və işlə birlikdə kassasiya şikayətinin verilmə müddəti bitdikdən sonra 7 gün müddətində kassasiya instansiyası məhkəməsinə göndərilir.

Mülki Prosessual Məcəllənin 414-cü maddəsinə görə qanunda başqa müddət müəyyən edilməyibsə, Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına, yaxud inzibati-iqtisadi kollegiyasına işlə birlikdə daxil olmuş kassasiya şikayətinə onun daxil olduğu gündən 2 ay müddətində baxılır.

Neftçala şəhər sakini Elman Xasay oğlu Nuriyevin adına verilmiş NZ №5263232 nömrəli, 16 oktyabr 1986-cı il tarixli hərbi bilet itdiyinə görə etibarsız sayılır.

Mürsəqulu kənd sakini Müşviq Teyyub oğlu Həsənovun adına verilmiş AO №0905875 nömrəli, 9 sentyabr 2007-ci il tarixli hərbi bilet itdiyinə görə etibarsız sayılır.

Qədimkənd kənd sakini Aliyə Cavanşir qızı Qarayevanın adına verilmiş JN-100F (KOD 80702038) nömrəli, 30 iyul 2001-ci il tarixli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyinə görə etibarsız sayılır

ALLAH RƏHMƏT ELƏSİN!

Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev və aparatın kollektivi

Xıllı qəsəbə sakinləri

ELŞAD MƏHƏRRƏMOVUN, TƏBİB MƏMMƏDOVUN, AFƏT MƏHƏRRƏMOVUN

faciəli şəkildə vəfat etmələrindən kədərləndiklərini bildirir, mərhumların ailələrinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Xıllı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Gülqədəm Mirzəzadə və nümayəndəliyin kollektivi qəsəbə sakinləri

ELŞAD MƏHƏRRƏMOVUN, TƏBİB MƏMMƏDOVUN, AFƏT MƏHƏRRƏMOVUN

faciəli şəkildə vəfat etmələrindən kədərləndiklərini bildirir, mərhumların ailələrinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verirlər.

"Gündoğar" qəzetinin baş redaktoru Habil Əsədov və redaksiyanın jurnalist kollektivi Xıllı qəsəbə sakinləri

ELŞAD MƏHƏRRƏMOVUN, TƏBİB MƏMMƏDOVUN, AFƏT MƏHƏRRƏMOVUN

faciəli şəkildə vəfat etmələrindən kədərləndiklərini bildirir, mərhumların ailələrinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Neftçala rayon mərkəzi xəstəxanasının kollektivi iş yoldaşları Gülağa və İlham Hüseynovlara, əzizləri

ELVİNİN

vaxtsız və faciəli vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi Neftçala rayon mərkəzi xəstəxanasının həkimləri Gülağa və İlham Hüseynovlara, əzizləri

ELVİNİN

vaxtsız və faciəli vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Diqqət, diqqət!

Mətbuata 2015-ci il üçün abunə kampaniyası başlayır

Hörmətli oxucular!

Respublikamızın ictimai-siyasi həyatı, rayonumuzda görülən işlər, həyata keçirilən tədbirlər, milli mənəvi dəyərlərimizi, ayrı-ayrı insanların ömür yollarını, talelərini əks etdirən maraqlı yazılar və digər materiallar Neftçala Rayon İcra Hakimiyyətinin təsisçisi olduğu "Gündoğar" qəzetinin ana xəttini təşkil edir. Belə yazıları, materialları oxumaq, özünüz də bu yazıların müəllifləri olmaq istəyirsinizsə onda gələn ilin birinci yarısı üçün qəzetimizə abunə yazılmağı unutmayın.

Diqqətinizə çatdırırıq ki, respublikamızın digər mətbuat nümunələri kimi "Gündoğar" qəzetinin əsas maliyyə mənbəyi də abunədir. "Gündoğar" qəzeti də abunədən toplanan vəsait hesabına çap olunur və rayon ərazisində yayılır.

Abunə redaksiyada və "Kapitalbank"ın Neftçala filialında nağd və köçürmə yolu ilə həyata keçirilir.

1 illik abunə qiyməti 40 (qırx), 6 aylıq abunə qiyməti isə 20 (iyirmi) manatdır.

Əlaqə telefonumuz: 3-44-03, **mobil:** (050) 333-72-30, (055) 669-56-71

Baş redaktor H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03 Mobil: (050) 333-72-30, (055) 669-56-71 H/H: №AZ95AIIB33080019446400258164 VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "EKSPRESS" mətbəəsində çap olunmuşdur. Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Tiraj: 750 Sifariş №34 Bir nömrənin qiyməti: 40 qəpik.